№271 ISSN 1027-3875 15 iyun 2009

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Fotomüxbir:
Könül ƏLİYEVA

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been published twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Photoreporter:
Konul ALIYEVA

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93


Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN
Bu nömrədə



YAPONİYA SƏFİRİ İLƏ GÖRÜŞ 4




ТОРЖЕСТВЕННОЕ СОБРАНИЕ, ПОСВЯЩЕННОЕ 150-ЛЕТИЮ ЭМАНУЭЛЯ НОБЕЛЯ 11




POEZİYA 20

MİN BİR DƏRDİN DƏRMANI 32





"DÜNYA" MƏKTƏBİNİN İLK MƏZUNLARI 35



"MƏKTƏBƏ GEDƏCƏYƏM..." 38

UNİVERSİTƏ XƏBƏRLƏRİ

"BİZ AVROPALIYIQMI?"

Mayın 6-da Azərbaycan Prezidenti Yanında Strateji Araşdırmalar Mərkəzində "Biz avropalıyıqmı?" mövzusunda konfrans keçirildi. Ekspert kimi dəvət olunan Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı mövzu ətrafında iki dəfə çıxış edib, suallara ətraflı cavab verdi.

TƏHSİLDƏ DƏYƏRLƏNDİRMƏ ÜZRƏ REGİONAL KONFRANS

Mayın 20-22-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı Təhsildə Dəyərləndirmə üzrə Beynəlxalq Assosiasiyanın regional konfransının ("International Association for Educational Assessment" Regional Conference) açılış və bağlanış iclaslarında iştirak etdi və əsas məsələlər barədə fikirlərini söylədi.

"UZAQ ŞƏRQ ÖLKƏLƏRİNDƏ UNİVERSİTET - SƏNAYE / İŞ DÜNYASI MÜNASİBƏTLƏRİ"

Mayın 26-da Açıq Cəmiyyət İnstitutu Yardım Fondunun (Azərbaycan) bəyənib qismən maliyyələşdirdiyi layihələr arasında Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlının "Uzaq Şərq ölkələrində Universitet - Sənaye / İş dünyası münasibətləri" mövzusunda yazılmış tədqiqat işi də vardı. Mərasimdə professor Hamlet İsaxanlı geniş məruzə etdi və suallara cavab verdi.




YAPONİYA SƏFİRİ ILƏ GÖRÜŞ

İyunun 2-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Masamitsu Okini ilə görüşdü. Görüşdə rektorun Yaponiya səfəri və əldə olunan nəticələr haqqında söhbət açıldı, gələcək planlar, Yapon-Azərbaycan elmi-mədəni-təhsil əlaqələrinin inkişaf perspektivləri və bu işdə Xəzər Universitəsinin rolu müzakirə edildi.

Beynəlxalq simpozium:

Dünyada yeni inkişaf meylləri və Türk Dünyası

Mayın 29-31-də Bakıda Xəzər Universitəsinin təşkilatçılığı ilə "Dünyada yeni inkişaf meylləri və Türk Dünyası" mövzusunda beynəlxalq simpozium keçirilmişdir. Simpoziumun keçirilməsindən məqsəd dəyişən dünya şəraitində ortaq tarix, dil və mədəniyyət birliyinə malik olan və bugünkü Türk Dünyasını meydana gətirən cəmiyyətlərin müxtəlif universitet, akademiya və institutlarındakı elm adamlarını bir yerə toplamaqla yaşadıqları cəmiyyətlərin və ümumiyyətlə Türk Dünyasının vəziyyətini, qarşılaşdıqları problemləri araşdırmaq və müzakirə etmək idi. Simpoziumun işində Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Almaniya və Kanada alimləri və tədqiqatçıları iştirak etmişlər. Simpoziumun işində Türkiyənin 20 universitetindən alim və tədqiqatçıların iştirak etməsi əlamətdar idi. Mayın 29-da Xəzər Universitəsinin "Dünya" konfrans salonunda simpoziumun təntənəli açılış mərasimi oldu. Xəzər Universitəsi "Dünya" məktəbinin şagirdləri Türk Dünyasının himninə çevrilmiş məşhur "Ana yurdum" mahnısını ifa etdilər.



Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı çıxış edərək, simpoziumu açdı. O dedi: *Xanımlar və bəylər, əziz dostlar, hörmətli qonaqlar! Elm-bilim adamları, iş adamlarl, dövlət adamları, sənət adamları! Sizi bu gün Xəzər Universitəsinin Konfrans Mərkəzində salamlamaqdan böyük qürur duyuram. Bir çox ölkələrdən – Türkiyədən, Özbəkistandan, Qazaxıstandan, Qırğızıstandan, Almaniyadan və digər ölkələrdən gələn, həmçinin Azərbaycandan olan çox hörmətli, çox görkəmli insanlar bu salondadırlar. Zamanımızın çox mühüm məsələlərindən bəzilərini müzakirə, təhlil etmək və ortaq bir fikrə gəlmək məqsədilə bura toplaşmışıq. Və Xəzər Universitəsi üçün şərəfdir ki, siz bir neçə gün Azərbaycan Respublikasının paytaxtı Bakıda bizimlə bir yerdə olacaqsınız. Biz bərabər sevinəcək, qayğılarımızı bölüşdürəcək və gələcək haqqında düşünəcəyik.*



Konfransımız çox qısa zamanda hazırlandı və bunun müxtəlif çətinlikləri oldu. Amma, digər tərəfdən, konfransın zamanının bir neçə baxımdan məhz bu gün olduğunu, indi olduğunu anladıq. Ən əvvəl ona görə ki, mayın 28-i 91 il öncə Şərqdə ilk demokratik respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gündür və xalqımız hər il bu günü bayram kimi qeyd edir, Azərbaycanda bayramdır. Digər tərəfdən, son zamanlar Türk dünyasında, o cümlədən Türkiyə və Azərbaycanda bəzi müzakirələr oldu və elm, sənət, fikir və düşüncə adamlarının bu məsələlərə münasibət bildirməsinə böyük ehtiyac var.

Biz artıq qloballaşan, məsafələrin yox olduğu dünyada yaşayırıq və bu bizə çox şey gətirdi. Gözəl şeylər gətirdi. Çətin, zor durumlar da yaratdı. Və bunlardan biri o oldu ki, qloballaşma dövrü Sovetlərin, Sosialist blokunun dağılması ilə eyni zamana uyğun gəldi. Çinin plan iqtisadiyyatından bazar, piyasa ekonomisinə keçdiyi dövrlə eyni zamana düşdü. Beləliklə, bu azad, sərbəst iqtisadiyyat dünyanı bürüdü. Başqa bir iqtisadiyyat qalmadı. Və buna sevindik. Sevinməklə bərabər anladıq ki, bu bazar ekonomisi, piyasa ekonomisi deyilən ekonomi də hər zaman belə çiçəklənən ekonomi deyil. Özü ilə kriz, böhran gətirə bilər.

Digər tərəfdən, Sovetlərin dağılması müstəqil cümhuriyyətlərin, onların içində də türk cümhuriyyətlərinin meydana çıxmasına səbəb oldu. Və biz təbii ki, buna çox sevindik. Çünki hər bir xalq tarix boyu öz dövlətçiliyini qurmaq, öz kimliyini təsdiq və təsbit etmək arzuları ilə yaşayır. Onlar yerinə gəldi – gözəl! Amma müstəqil dövlət olmanın zorluqları da, çətinlikləri də meydana gəldi. Biz uğurlar da qazandıq. Uğursuzluqlarımız da oldu. Simpoziumumuzun məqsədi bu və buna bənzər məsələləri, problemləri burda müzakirə etməkdir. Və simpoziumumuzun adında "dünya" və "türk dünyası" sözləri vardır – yəni, dünyanın içində türk dünyası. Və burda hər bir türk dövlətinin öz maraqları var, öz dövlət maraqları, xalq maraqları, özünə xas olan, özünə məxsus olan problemləri var. Bəzən bu problemləri öz aralarında müzakirə etmək, münasibətləri aydınlaşdırmaq tələb olunur. Türk dövlətləri öz aralarında, belə deyək, horizontal münasibətlər qurmaqla yanaşı, həm də ayrı-ayrılıqda böyük dövlətlərlə – ya Amerika olsun, ya Avropa Birliyi, ya Rusiya olsun, ya Çin – bütün böyük dövlətlərlə vertikal münasibətlər qurmaq məcburiyyətindədirlər. Bu münasibətlərin bəzən bir-birinə zərəri dəyə bilər. Son zamanlar biz bunu Türkiyə-Amerika münasibətləri timsalında gördük. Hər kəs istər ki, bu münasibətlər gözəl olsun. Amma Türkiyə-Amerika münasibətləri – bu vertikal münasibətlə Türkiyə-Azərbaycan horizontal münasibətləri arasında problem meydana çıxmışdı. Amma biz əmin idik və gördük ki, bizim öz aramızda olan münasibətləri önə çəkməyi bacarırıq. Yəni, bu mümkün olan bir işdir.

Sovet Ittifaqı dağılan zaman bir çox yeni qurumlar meydana çıxdı, ortaya gəldi. Onlardan biri də Xəzər Universitəsi idi, bizim Xəzər Universitəsi. Biz də düşündük ki, iqtisadiyyatın, siyasi sistemin çökdüyü, mənəvi dəyərlərin zədə aldığı, sarsıldığı bir dövrdə yaranan bir universitet cəmiyyətə yardımçı olmalıdır. Gerçək mənəvi dəyərlər barədə düşünməli, ciddi bir təhsil, elm, mədəniyyət ocağına çevrilməli, həm Azərbaycana, həm Türk dünyasına, həm də dünyaya öz töhfəsini verməyə çalışmalıdır. Qloballaşan dünyada bir universitə kiçik bir bölgənin universitəsi ola bilməz. Çünki bütün dünya universitələri birbirilə rəqabətdədir. Və bu baxımdan düşündük ki, biz həmçinin Türk dünyasının birliyi kimi şüarları ortada canlı saxlamağa çalışan bir qurum olmalıyıq. Əgər bizim universitələrimiz, bizim elm-sənət, mədəniyyət sahəsində olan böyük qurumlarımız öz aralarında iş birliyinə girə bilməsələr, səylərini birləşdirə bilməsələr, düşündüyümüz birliyə nail ola bilmərik. Çünki hər zaman, hətta soyuq savaş zamanı qarşı-qarşıya duran ölkələrin elm-bilim adamları, universitələri bərabər çalışmışlar. Amma dost ölkələrin, strateji birlik olan türk dövlətlərinin universitələrinin və digər qurumlarının bərabər olması, bir olması həyati bir zərurətdir. Bu sahədə biz az iş görürük. Söyləyə bilərik ki, hər birimizin öz problemlərimiz var. Amma biz bərabər hərəkət etmək məcburiyyətindəyik. Və bunu biz edə bilərik. Bugünkü konfrans bunun bir nümayişidir. Və buna görə mən hamınıza təşəkkür edirəm. Salonda olan hər bir kəsə, salonda olmayanlara da, uzaqdan bizi dəstəkləyənlərə də mən təşəkkür eləyirəm.

Burda tək Xəzər Universitəsi bu işi görə bilməzdi.

Türkiyədəki, Orta Asiyadakı bir çox universitələr, elmlər akademiyası bu toplantıya, onun hazırlanmasına qatılmaq arzularını bildirdilər və gəldilər. Əlbəttə, hər zaman toplantı, konfrans, simpozium keçirmək hər bir universitənin işidir, bu, əslində, böyük bir şey kimi qələmə verilə bilməz. Amma bu toplantı hər zaman arzuladığımız bir fikrin təcəssümüdür, gerçəkləşməsidir. Və mən sizə çox təşəkkür edirəm ki, bu işin ortaya çıxmasında, meydana gəlməsində iştirak etdiniz. Mən simpoziumumuzu açıq elan edir, hamınıza uğurlu iş arzulayıram.

Sonra Hamlet Isaxanlı açılış mərasimini idarə etmək üçün Türkiyə Cümhuriyyəti Anayasa Məhkəməsinin üzvü Sacid Adalını, Qazi Universitəsinin rektoru Riza Ayhanı, Özbəkistan Milli Elmlər Akademiyası Tarix İnstitutunun direktoru Dilorom Alimovanı, Süleyman Demirəl Universitəsinin rektoru Metin Lütfi Baydarı və Çanaqqala Onsəkkiz Mart universitəsinin rektoru Ali Akdemiri simpoziumun rəyasət heyətinə dəvət etdi.

Sədrlik edən Hamlet İsaxanlı ilk sözü Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı



Anara verdi. O, simpozium iştirakçılarını salamlayaraq dedi: *Bu gün dünyanın inkişaf meylləri fonunda türk dünyasının özünəməxsus, özəl yeri var. Bu, ondan ibarətdir ki, ipək yolu tarixən türk torpaqlarının içindən keçib və bu gün də türk torpaqları – yeddi müstəqil türk cümhuriyyəti Şimal və Cənub arasında, Xristian dünyası ilə İslam dünyası arasında bir körpü rolunu oynayır. Və bu iki dünyanın bir-birini daha yaxşı anlamasına böyük kömək göstərə bilər.*

Türk dünyasını hansı təhlükələr gözləyir, türk dünyası hansı təhlükələrlə qarşılaşır? Birincisi, bu kürəsəlləşmə, qloballaşma zamanında türk dünyası mənliyini, özünəməxsusluğunu, özəlliyini qoruyub saxlamalıdır. İkinci də, təməl dinçilik meyllərindən qorunmalıdır. İslam dini səmavi dinlər arasında ən tolerantlı bir dindir. İslam dini özündən əvvəlki bütün peyğəmbərləri və Həzrət Məhəmmədi də son peyğəmbər kimi qəbul edir. İslam dünyasında xristian və yəhudi peyğəmbərlərinin – Musanın, İbrahimin, İsanın adları müqəddəs tutulur, amma xristian dünyasında siz Məhəmməd, Əli, Həsən, Hüseyn adlarına rast gəlməzsiniz. Ancaq bununla da bərabər İslamın adından sui-istifadə eləyən təməl dinçilik də var. Və bu təməl dinçiliyin törəməsi olan terror var. Türk dünyası bir tərəfdən kürəsəlləşmənin milli cəhətləri pozmasının qarşısını almalı, ikinci tərəfdən də bu terrorizmlə təməl dinçiliyə qarşı mübarizədə fəal iştirak etməlidir. Ona görə Türk dünyasının özünün birləşməsi və ilk növbədə Azərbaycanın və Türkiyənin eyni siyasət yeritməsi, eyni yolla getməsi çox vacibdir.

Sovet birliyi dağılandan sonra bütün sovet cümhuriyyətləri, demək olar ki, eyni sorumlarla, eyni problemlərlə qarşılaşdılar. Yəni, Azərbaycan da o biri türk cumhuriyyətləri kimi böyük bir imperiyanın bir əyaləti olmaq statusundan müstəqil dövlət statusuna, plan ekonomisindən bazar ekonomisinə, totalitar rejimdən demokratik rejimə keçməyə başladı və bu çox çətin və mürəkkəb bir prosesdir. Ölkələr bu yolu əsrlər boyu keçmirlər. Amma postsovet məkanında bu cumhuriyyətlər bunu 10-15 il işində keçmişlər.


Azərbaycanın vəziyyəti daha ağır oldu, çünki daxili sorumlardan başqa, bilirsiniz ki, Azərbaycanın Qarabağ problemi var. Və Azərbaycan torpaqlarının 20 faizi işğal olunub, 1 milyondan artıq insan qaçqın və köçkün vəziyyətinə düşüb. Burda türk xalqlarının birliyini vəsf edən mahnı səsləndi. Belə simpoziumlarda Türk dünyasının problemlərindən danışırıq və belə simpoziumlar çox önəmli və çox vacibdir. Amma daha da vacib olan Azərbaycanın haqq işinin o biri türk cümhuriyyətləri tərəfindən hər yerdə, o sırada beynəlxalq təşkilatlarda dəstəklənməsidir. Çünki açığını deyim, bəzən bizə çox qəribə gəlir ki, Birləşmiş Millətlər Təşkilatında Azərbaycanın torpaq bütövlüyü haqqında bəyannamə qəbul olunanda bizim bəzi qardaş türk cümhuriyyətləri ya iştirak eləmirlər, ya da səs vermirlər. Halbuki, bu məsələlərdə biz bir yerdə hərəkət eləməliyik və nə qədər bir yerdə hərəkət eləsək, o qədər də güclü olacağıq.

Açılış mərasimində Türkiyə Cühuriyyəti Anayasa məhkəməsinin üzvü, Prof. Dr. Sacid Adalı, Qazi Universitəsinin rektoru, Prof. Dr. Riza









Ayhan, Özbəkistan Milli Elmlər Akademiyası Tarix İnstitutunun direktoru, Prof. Dr. Dilorom Alimova, Süleyman Demirəl Universitəsinin rektoru Prof. Dr. Metin Lütfi Baydar, Çanaqqala Onsəkkiz Mart Universitəsinin rektoru, Prof. Dr. Ali Akdemir, TİKA Azərbaycan nümayəndəsi Prof. Dr. Abubekir Çelik, TürkSAM-ın direktoru Sinan Oğan, Azərbaycan Turizm Universitetinin rektoru, Prof. Dr. Cəfər Cəfərov, QafqazUniversitəsinin rektoru Əhməd Sanıç, "Xəzər" Şirkətinin (İstanbul) prezidenti Ali Polat çıxış etdilər.

Mayın 29-30-da simpozium 5 bölmədə (Yeni dünya nizamı, iqtisadi böhran və inteqrasiyalar; Beynəlxalq əlaqələr və əməkdaşlıqlar; Dünya təhsil sistemi və türk dünyası; Tarix, fəlsəfə,din və sosiologiya; Dil, ədəbiyyat, mədəniyyət) işini davam etdirərək, 120-dək məruzə dinlənildi.

Mayın 30-da Xəzər Universitəsinin "Dünya" konfrans salonunda simpoziumun bağlanış mərasimi keçirildi. Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı çıxış edərək, simpozium iştirakçılarının iki gün ərzində bölmələrin 30-dək iclasında elmi müzakirələrdə fəal iştirak etdiklərini qeyd etdi, gələcək fəaliyyətlərində onlara uğurlar arzuladı. Türkiyə Cümhuriyyəti Anayasa Məhkəməsinin üzvü, Prof. Dr. Sacid Adalı, Qazi Universitəsinin rektoru, Prof. Dr. Riza Ayhan, Çanaqqala Onsəkkiz Mart Universitəsinin rektoru, Prof. Dr. Ali Akdemir, Almaniyada "Muğam" Mədəniyyət Mərkəzinin rəhbəri Abdulkadir İnaltekin öz çıxışlarında simpoziumun həm təşkilati, həm də elmi mübadilə baxımından yüksək səviyyədə keçdiyini və bu cür tədbirlərin bundan sonra da keçirilməsinin zəruri olduğunu qeyd etdilər.

Sonra bölmə sədrləri – Prof. Dr. Ahmet Karaaslan (Dumlupınar Universitəsi, Türkiyə), Prof. Dr. Kenan Çelik (Qaradəniz Texniki Universitəsi, Türkiyə), Prof. Dr. Solmaz Rüstəmova-Tohidi (AMEA Şərqşünaslıq İnstitutu, Azərbaycan) və Prof. Dr. Ahmet Bican Ercilasun (Qazi Universitəsi, Türkiyə) iclasların yekunları haqqında məlumat verdilər.

Mayın 31-də simpozium iştirakçıları Bakının tarix və mədəniyyət abidələri ilə tanış olmuşlar.

Simpozium haqqında "Bizim yol" qəzetində dərc olunmuş iki yazını oxucuları təqdim edirik.

TÜRK DÜNYASI BEŞİNCİ QLOBAL GÜC OLA BILƏR

Professor doktor Riza Ayhan Azərbaycanı bu gücün mərkəzi hesab edir.

Bu fikirlər Xəzər Universitetinin təşkil etdiyi elmi simpoziumda səslənib.

"Türk dünyası da öz iqtisadi potensialına, coğrafiyasına, təbii sərvətiərinə, enerji və insan ehtiyatlarına görə ABŞ, Avropa Birliyi, Rusiya və Çinlə yanaşı beşinci qlobal güc mərkəzinə çevrilə bilər".

Bu fikri Türkiyə Qazi Universitetinin rektoru, professor doktor Riza Ayhan dünən Bakıda öz işinə başlamış "Dünyada yeni inkişaf meylləri və türk dünyası" simpoziumunda söyiədi. Xəzər Universitetinin təşkilatçılığı ilə mayın 29-dan 31-dək keçirilən bu simpoziumun açılışında təhsil naziri Misir Mərdanov da iştirak etməli idi, ancaq bəlli olmayan səbəblərdən açılışa gəlmədi.

Xəzər universitetinin rektoru, professor Hamlet İsaxanlı giriş sözündə bildirdi ki, qloballaşma Sovetlər Birliyinin dağılması ilə eyni vaxta düşdü. Onun sözlərinə görə, dünyanın "kiçilməsi", məsafələrin aradan qalxması özü ilə bir sıra müsbət dəyərlər gətirməklə yanaşı, mənfi nəticələr də doğurdu ki, onlardan biri də qlobal böhranlardır. Hamlet İsaxanlı bu şəraitdə türkdilli dövlətlərin, bütövlükdə türk dünyasının ata biləcəyi addımların elmi baxımdan araşdırılmasına ehtiyac olduğunu da dedi.

Yazıçılar Birliyinin sədri Anar dedi ki, Sovetlər Birliyinin dağılması ilə müttəfiq respublikalar üç nəhəng prosesi yaşamaq zərurəti qarşısında qaldı: "Bunlar Sovet Ittifaqının əyalətlərindən müstəqil dövlət statusuna keçid; planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid; totalitar siyasi rejimdən demokratik quruluşa keçid prosesləri idi. Başqa xalqlar başqa zamanlarda bu proseslərin hər birini əsrlərlə keçiblər, ancaq yeni müstəqil dövlətlər bu üç prosesi eyni vaxtda - 15 ilə keçməli oldu. Bununla yanaşı, Azərbaycan daha bir böyük problemlə də qarşılaşdı, bu, Ermənistanın Azərbaycan torpaqlarının bir hissəsini işğal etməsi idi". Anarın fikrincə, türk dünyası təkcə birinci üç problemin həllində deyil, bununla yanaşı və bəlkə də daha çox Azərbaycan ərazilərinin işğaldan azad olunmasında da öz səylərini birləşdirməlidir.

Türkiyə Konstitusiya Məhkəməsinin üzvü Sacid Adalı gölün içindəki 160 kv. kilometrlik bir adada doğulduğunu, 4 yaşında gölün ətrafına baxıb: "Dünya necə də böyükdür" deyə düşündüyünü dilə gətirdi: "Sonralar Türkiyənin sərhədlərindən çıxdığım zaman, 1992-ci ildə Azərbaycana gəldiyimdə dünyanın, eləcə də, türk dünyasının nə qədər böyük olduğunu bir daha duydum. Biz böyüdükcə dünyamız da böyüyür. Ancaq 160 kv. kilometrlik bir əraziyə qapanıb qalarsaq, beynimizin imkanları da məhdud olaraq qalır. Ona görə də hər birimiz öz ölkəmizi deyil, bütün Türk dünyasını, bütövlükdə dünyanı qucaqlamalıyıq".

Qazi Universitetinin rektoru Riza Ayhan türk dünyasında Azərbaycanın mərkəz olduğunu dedi: "Qərbdə Türkiyə, Şərqdə Mərkəzi Asiyanın türkdilli dövlətləri - Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan var. Ancaq Azərbaycan tən ortadadır, yəni Türk dünyasının mərkəzidir".

Türkiyə Süleyman Dəmirəl Universitetinin rektoru Metin Lütfi Baydar, Çanaqqala On Səkkiz Mart Universitetinin rektoru Ali Akdemir və başqaları çıxış etdilər. Bölmə iclaslarında "Müasir dünya, iqtisadi böhran və inteqrasiyalar", "Türk dünyası beynəlxalq münasibətlər sistemində", "Dünya təhsil sistemi və türk dünyası", "Tarix, fəlsəfə, din və sosiologiya", "Dil, ədəbiyyat və mədəniyyət" mövzularında diskussiyalar keçiriləcək.

Türkiyənin və Mərkəzi Asiyanın üç dövlətindən, eləcə də, Almaniyadan, Kanadadan olan elm adamlarının iştirak etdiyi diskussiyalarda Azərbaycanın çoxlu elm adamı, o cümlədən professorlar Cəmil Həsənli, Hamlet İsaxanlı, İnqilab Əhmədov, Kamil Vəli Nərimanoğlu, Qeybulla Ramazanoğlu, Solmaz Rüstəmova-Tohidi, Əjdər Ağayev və başqa tanınmış alimlər də elmi məruzələr söyləyəcəklər.

Gülnarə ƏMIRQIZI
"Bizim yol" qəzeti,
30 may 2009-cu il

AZƏRBAYCAN PAYTAXTI ELM MƏRKƏZİ STATUSU QAZANIR

BMT yanında Universitet Rektorları Şurasının bölgə nümayəndəliyi Bakıda açılacaq

Mayın 29-da Bakıda öz işinə başlamış "Dünyada yeni inkişaf meylləri və türk dünyası" mövzusunda elmi simpozium dünən öz işini başa vurdu.

Xəzər Universitetinin təşkil etdiyi, üç gün davam edən, Türkiyədən, Qazaxıstandan, Qırğızıstandan, Özbəkistandan, Kanadadan, Almaniyadan çoxlu sayda universitetlərin təmsilçilərinin iştirak etdiyi bu elmi məclisdə onlarla maraqlı məruzə və çıxışlar oldu. Açılış və bağlanış mərasimlərindəki çıxışlarda Azərbaycanın, Bakının türk dünyasında həm də bir elm mərkəzi olduğu dilə gətirildi. Türkiyənin Süleyman Dəmirəl Universitetinin rektoru Mətin Lütfi Baydarın verdiyi məlumata görə, BMT yanında Universitet Rektorları Şurasının bölgə nümayəndəliklərindən biri də məhz Bakıda açılacaq. Özü türkdilli ölkələrdən bu şuraya yeganə üzv olan Mətin Lütfi Baydar belə bir təkliflə çıxış etdiyini dedi.

Xəzər Universitetinin rektoru, professor Hamlet İsaxanlı, onun Türkiyədən və başqa türkdilli ölkələrdən olan həmkarları simpoziumu türk dünyasında vahid elmi məkanın formalaşdırılmasına doğru bir addım adlandırırdılar.

Xəbər xidməti
"Bizim yol" qəzeti,
1 iyun 2009-cu il



HÖRMƏTLI LEYLA XANIM!

Xəzər Universitəsinin kollektivi adından Sizi yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı, şərəfli peşənizdə uğurlar arzulayırıq.

Siz həkimlər ailəsində böyüyərək, insanlara gərəkli həkim peşəsinə yiyələnmisiniz. Ulu Nizami yazırdı ki,

Hərçənd sənətin çox rütbəsi var,
Həyatda faydalı bir elm axtar.
Elmlər elmidir demiş Peyğəmbər:
Din elmi, təbabət elmi müxtəsər.


Siz insanların sağlamlığı keşiyində durur, Hippokrat andına sadiq qalaraq, peşənizi ləyaqətlə yerinə yetirirsiniz. Ölkəmizin müxtəlif səhiyyə ocaqlarında keçən fəaliyyətinizin son səkkiz ilini Xəzər Universitəsində çalışır, müəllim və tələbələrimizin səhhətinə qayğı göstərirsiniz. Səmimiyyətiniz, mehribanlığınız Sizi kollektivimizin sevimlisinə çevirmişdir.

Siz həkimlik peşənizlə yanaşı yaradıcılıqla da məşğul olur, ölkə mətbuatında dərc etdirdiyiniz publisistik yazılarda və esselərdə cəmiyyətimizin mühüm məsələlərinə toxunur, fikir və mülahizələrinizi oxucularla bölüşürsünüz. Siz, həmçinin, naxıştikmə sənəti ilə məşğul olursunuz və gözəl əl işləriniz vardır.

Hörmətli Leyla xanım! Sizi bir daha təbrik edir və gələcək işlərinizdə uğurlar arzulayırıq!

XƏZƏR UNİVERSİTƏSİNİN KOLLEKTİVİ

ТОРЖЕСТВЕННОЕ СОБРАНИЕ, ПОСВЯЩЕННОЕ 150-ЛЕТИЮ ЭМАНУЭЛЯ НОБЕЛЯ



2009 год изобилует знаменательным датами, связанными с бакинской нефтяной промышленностью. Это 130-летие товарищества «Бр. Нобель», а также основания Бакинского Отделения Императорского Русского Технического Общества (БОИРТО), 110-летие журнала «Нефтяное Дело», 150-летие руководителя т-ва «Бр. Нобель» Эмануэля Нобеля.

1 июня 2009 г. в Музее Истории Азербайджана под председательством президента НАНА Махмуда Керимова состоялось торжественное собрание, посвященное 150-летию Эмануэля Нобеля и 130-летию основания т-ва «Бр. Нобель». В Восточном зале музея присутствовали члены Президиума НАНА, руководство Бакинского Фонда Нобельского Наследия во главе с председателем Тогрулом Багировым, представители нефтяных компаний, посольств. Среди приглашенных гостей был председатель Общественной Палаты России, президент Российского Научного Центра «Институт Курчатова», председатели нобелевской семьи – президент Нобелевского Благотворительного Фонда проф. Майкл Нобель и член президиума Нобелевского Семейного Общества Густав Нобель, посол Швеции по Южному Кавказу господин Ганс Гуннар Аден.

Были заслушаны доклады о вкладе Нобелей в создание промышленной инфраструктуры на рубеже XIX – XX столетий.

Особый акцент был сделан на меценатстве Нобелей. В частности, д.и.н., проф. Эльмира Мурадалиева подчеркнула малоисследованный аспект об участии бакинского нефтяного капитала в создании Международного Нобелевского Фонда премий. Проф. отметила, что хотя А.Нобель являлся главой западной ветви Нобелей, но имея свою долю в бакинском нефтяном бизнесе, долгие годы он числился также одним из руководителей т-ва «Бр. Нобель». 12 - 14% капитала, из которых выплачиваются Нобелевские премии, внесло т-во «Бр. Нобель». Принципиальная позиция нефтяной ветви Нобелей в лице Эмануэля о передаче в 1899 г. причитающейся Альфреду с бакинской нефти суммы в Нобелевский фонд сделала возможным выдачу уже в 1901 г. первых премий. Что же касается извлечения капиталов из двух западных динамитных трестов и др. предприятий Альфреда, оно натолкнулось на судебные препоны. В конце своего выступления Э.Мурадалиева выступила с предложением об учреждении Международной Нобелевской Премии «За лучшие проявления человеческой деятельности» в области нефтяного дела. Она подчеркнула, что учреждение подобной премии вполне соответствует концепции завещания А.Нобеля, т.к. эта сфера во многом повлияла и еще будет влиять на мировую цивилизацию.

Выступившие затронули также небезынтересный факт из истории Бакинской Нобелевской премии имени Эмануэля, учрежденной в связи с 25-летием т-ва «Бр. Нобель» в 1904 г. Эта премия выдавалась трижды – в 1909, 1911 и 1914 годы.

По торжественному случаю как показатель возвращения Нобелей в Азербайджан явилось учреждение медали имени «Эмануэля Нобеля». Среди историков этой медалью были награждены академик, директор Музея Истории Азербайджана Наиля ханум Велиханлы, д.и.н., проф. БГУ Эльмира ханум Мурадалиева, к.и.н., зам. директора Института истории НАНА Джаби Бахрамов.

Təhsil tərbiyədən başlayır

Deyilənə görə, insanı başqa canlılardan fərqləndirən 67 xüsusiyyət var. Yəqin ki, bu xüsusiyyətlərin ən mühümlərindən biri insanın tərbiyəsidir. Əlbəttə, insanın tərbiyəsi məsələsində bir nisbilik var. Məsələn, biri üçün tərbiyəli qəbul edilən insan, başqası üçün dözülməz ola bilər. Lakin insan tərbiyəsi üçün cəmiyyətdə qəbul olunmuş bir həddi var ki, bu həddən sonra tərbiyəsizlik başlayır.

Tərbiyəli insan həm özü, həm də cəmiyyət üçün bir tapıntıdır, hədiyyədir. Tərbiyəsiz insan isə, həm özü, həm də cəmiyyət üçün bir bəla, sağalmaz yaradır. Bircə nəfər tərbiyəsiz insanın hərəkətləri, davranışı, danışığı böyük bir kollektivin normal işini poza bilər, gərginlik, pozğunluq, intriqa yarada bilər.

28 yaşlı elmlər doktoru (bu yaşda belə yüksək elmi dərəcə hər kəsə qismət olmur) qeyri-insani keyfiyyətlərinə görə həmkarlarının qəzəbinə tuş gəlmişdi – elmlər doktoru olsa da, 7 il idi ki, onu professor vəzifəsinə, rütbəsinə seçmirdilər (halbuki o dövrlərdə elmlər doktorunu bir ildən sonra professor seçirdilər). Həmkarları bu, şübhəsiz istedadlı, bilikli alimə, lakin yaramaz insana qarşı mövqelərində haqlı idilər – belə bir insanı professor seçməklə onun mövqeyini daha da möhkəmlətmək kimə lazım idi?!

Tərbiyənin təhsildə yeri daha önəmli, daha vacibdir. Mənim qənaətim belədir: təhsil tərbiyədən başlayır.

Müəllim, şagird, tələbə münasibətlərində anlaşılmazlıq, gərginlik, xoşagəlməyən hadisələr həmişə olur. Bəzən, hətta, qulaqburması, şillə-şapalaq, çubuq da işə düşüb. Lakin əvvəllər bu konfliktlərin əsasında müəllim etinasızlığı, laqeydliyi, diqqətsizliyi, şagird, tələbə şuluqluğu, nadinçliyi, şıltaqlığı dururdusa, indiki dövrdə qarşılıqlı təhqir, şəxsiyyətin alçaldılması, insan şərəfinin, ləyaqətinin tapdanması kimi ağır ittihamlar durur. Əlbəttə, bu konfliktlərin yaranmasına rəvac verən, şərait yaradan, hərəkətini, danışığını, davranışını bilməyən, şagirdin, tələbənin şəxsiyyətinə, mənliyinə toxunan, mədəniyyətdən uzaq, kobud "müəllimlər"ə də rast gəlirik. Əslində, belə müəllimlərə təhsil sistemində yer olmamalıdır.

Bu yazıda isə ömrünün çoxunu təhsilə həsr etmiş, həyatını sinifsiz, auditoriyasız təsəvvür edə bilməyən, şagirdləri, tələbələri öz övladları kimi qəbul edən, biliyini, bacarığını onlardan əsirgəməyən, yaşlı, təcrübəli, təhsil sisteminin qızıl fondu hesab edilən müəllimlərin üzləşdikləri ciddi problemdən söhbət gedir.

Azərbaycan Milli Elmlər Akademiyasının bağında tanınmış alim, görkəmli pedaqoq olan köhnə dostumla qarşılaşdım. Dostum çox fikirli, kefsiz görünürdü. Xoş-beşdən sonra:

- A qardaş, bu dünyanın dərdi sənə qalıb? Alnının qırışığı açılmır.

- Vallah, qardaş, dünyanın dərdini çəkmirəm, öz dərdimi çəkirəm – deyib, dərdini açdı:

- Bilirsən ki, ömrümüzü, həyatımızı təhsilə bağlamışıq. Müəllimliyin şirinliyini də, acılığını da dadmışıq. Müəllim-tələbə münasibətlərində

incikliklər də olub. Amma bu münasibətlərdə xoş, ömrümüzə yazılmalı, müəllim ömrünü uzadan günlərimiz daha çox olub. İndi isə bu münasibətlərdə dözülməz məqamlar yaranıb və ilbəil genişlənərək yeni formalar alır.

Təsəvvür elə ki, artıq 5 dəqiqədir dərs başlayıb, lakin bir tələbənin mobil telefon danışıqları (hərçənd dərs vaxtı telefondan istifadəni, özüm qarışıq, qadağan eləmişəm) mühazirəyə başlamağa imkan vermir. Səbrlə telefon danışığının qurtarmasını gözləyirəm. Lakin tələbə öz işindədir. Daha dözməyib:

- A bala, niyə qoymursan dərsimizi keçək, axı səni gözləyirəm – deyirəm.

- Müəllim, siz mənə fikir verməyin, mühazirənizi deyin gəlsin. Mən bir az gec qurtaranam – deyib, üzümə irişir.

- Ay oğul, imkan ver, dərsə başlayaq.

- Müəllim, eşitmirsiniz qızla danışıram, tərbiyəsizlik edib qıza odboy verə bilmərəm.

- İcazə verirəm, get bayırda nə qədər istəyirsən danış, qaib də qoymayacam.

- Yox, müəllim, məni bayırda görüb elə bilərlər qovulmuşam.

- Yaxşı, biz indi sənin nə edək? İmtahanlara da az qalıb, niyə imkan vermirsən bu uşaqlar nəsə yazsınlar, nəsə öyrənsinlər.

- Müəllim, imtahanı yada salmaqla mənə hədə-qorxu gəlirsən, duxun çatmaz məni kəsəsən. Məni kəsməsən, lap kişi deyilsən – qapını üzümüzə çırpıb auditoriyanı tərk edir.

Bu nadürüstün qırx ilin müəlliminə, professora "sən" deməsi bəs deyil, mənim kişiliyimi də şübhə altına alır. İndi səndən soruşuram, mən auditoriyaya necə girim, o uşaqların üzünə necə baxım?

Tələbələr mobil telefonla bağlı bir hadisəni də mənə danışmışdılar.

Tələbə müəllimin iradlarına, xahişinə, tələbinə məhəl qoymadan dərs vaxtı mobil telefonla danışır. Axırda müəllim məcbur olub, telefonu onun əlindən alır. Lakin tələbə ehtiyat telefonu işə salır və kiməsə xəbər verir ki, əsas telefonu müəllim əlindən alıb. Aradan 10-15 dəqiqə keçməmiş "gülbala"nın atasının boynuyoğun qoçuları auditoriyaya daxil olurlar, təhqiramiz hərəkətlər və ifadələrlə müəllimi telefonu qaytarmağa məcbur edirlər.

Elə bilməyin ki, tələbə dələduzluğu telefon əhvalatları ilə bitir. Bir də elə bilməyin ki, bu "qəhrəmanlar" yalnız yüksək vəzifəli adamların övladlarıdır. Xeyr. Mən nazir övladları tanıyıram ki, öz tərbiyələrinə, biliklərinə görə gənclərə nümunə olmağa layiqdirlər.

Əksər hallarda bu dələduzlar zəhmət çəkmədən, ağıl işlətmədən haram yollarla qısa bir müddətdə varlanmış, milyoner olmuş, səviyyəsiz, şəxsiyyətsiz, görməmiş, harınlaşmış, hər şeyi pulla həll edə biləcəklərinə inanan, cəzasızlıq hissləri ilə yaşayan insanların balaları və onların təsiri altına düşənlərdir.

Burada ən qorxulu cəhət gəncdə bəd əməllərinə görə cəzasızlıq hissinin formalaşmasıdır. Bu hiss o, gələcəkdə bir vəzifə sahibi olanda daha ağır fəsadlar yaradacaq.

Siz auditoriyanın qapısını təpiklə açan tələbəyə rast gəlmisiniz? Partaların, stolların üzərində öz avtoqraflarını qoyan, "sənət əsərlərini" yaradan tələbələrə necə? Bəs yenicə rənglənmiş auditoriya divarlarında, tavanda ayaq izlərinə necə?

Sözün düzü, bir tavandakı ayaq izlərindən başqa tələbənin qalan "yaradıcılıq" imkanları mənə aydın idi. Lakin buna baxmayaraq, tələbələrimin köməyinə ehtiyac duydum və onlar məni bu işdən agah etdilər.

- Müəllim, divardakı izləri akrobatik sıçrayışla, lap yuxarıdakı izləri isə ayaqqabıları çıxarıb ələ almaqla qoyurlar. O ki qaldı tavandakı ayaq izlərinə, bu çox çətin başa gələn işdir, hövsələ tələb edir. Tələbə ayaqqabılarını çıxarıb, tavanda iz düşənə qədər atır.

- Ay uşaqlar, axı bu yaramaz hərəkətlər sizin (şəxsən sizi nəzərdə tutmuram, ümumiyyətlə

tələbələri nəzərdə tuturam) gözünüz qarşısında baş verir (bu nadürüstlər hər şeyi özlərini göstərməkdən ötrü edirlər), niyə onları başa salmırsınız ki, bu hərəkətlər insana yaraşan hərəkətlər deyil.

- Müəllim, əgər belə tələbələr kiminsə ağıllı məsləhətinə qulaq asan olsa idilər, heç bu işlərlə məşğul olmazdılar. Bir də ki, onların "işi"nə qarışmaq mütləq dava-dalaşa gətirib çıxarır. Bu davalarda da onlar həmişə haqlı çıxırlar, çünki möhkəm arxaları, çoxlu pulları var. Onlar nə töhmətdən, nə də böyük xərclərdən çəkinmirlər. Onların qorxduğu bircə şey var, o da təhsil müəssisəsindən xaric olunmaqdır. Çünki onların məqsədi nə savaddır, nə bilikdir. Onları yalnız istənilən yolla əldə edilən diplom maraqlandırır. Bu diplom onların gələcək karyeraları üçün lazımdır.

Təhsildə tərbiyə məsələsi özəl universitetlərdə (Qafqaz, Xəzər universitetləri istisna olmaq şərtilə. Qafqaz Universitetində Türkiyə təhsil sistemi tətbiq olunur, Xəzər Universitəsi isə həmişə unikallığı ilə seçilib) daha bərbad haldadır. Bu universitetlərdə bir prinsip işləyir. Əgər tələbə vaxtlı-vaxtında təhsil haqqını, semestr haqqını ödəyirsə, daha ondan əlavə nə tələb etmək olar? Odur ki, tələbəyə yaramaz hərəkətlərinə görə "gözün üstə qaşın var" demirlər. Tələbələr min oyundan çıxırlar.

Özəl universitetlərin birində gördüklərim məni dəhşətə gətirdi.

Xərci azaltmaqdan ötrü bir neçə müəllimin dərs yükünü yükləyirlər bir müəllimin üstünə, 80-100 tələbəni yığırlar bir auditoriyaya. "Dərs"də ağız deyəni qulaq eşitmir. Kağız quşlar düzəldib uçurdan kim, şirin-şirin söhbətləşən kim, qapazlaşan kim, telefon danışıqları da öz yerində. Maraqlı burasıdır ki, müəllim bütün bunlara baş qoşmadan öz işindədir, lövhədə nəsə yazır-pozur, özü deyib - özü eşidir. Yazıq müəllim neyləsin, çörək pulu bu bazardan – "dərs"dən çıxır (bu yerdə həmkarım rəhmətlik Yaqub Süleymanovun bir kəlamı yadıma düşdü: müəllimlik gözəl işdir, bircə bu dərs deməyi olmaya).

Müəllimi qınamağa haqqım yoxdur. Çünki bu dəlixanada Makarenko da baş çıxara bilməzdi. Qınanmalı bu bazarı yaradanlardır.

Fikirləşirəm ki, belə "dərs", belə təhsil kimə sərfəlidir? Niyə universitet rəhbərləri təhsilə bu dərəcədə biganədirlər? Niyə tərbiyə kimi mühüm bir sahəyə nəzarət etmirlər? Ancaq lazım bildikləri hər şeyi ciddi nəzarətdə saxlayırlar.

Mühazirənin şirin yerində bir də görürsən auditoriyanın qapısı açıldı, əlində jurnal (öz jurnalı) prorektor içəri daxil oldu, dərsə davamiyyət yoxlanılır. Sinif nümayəndələri davamiyyət haqqında məlumat verirlər. Lakin prorektoru bu məlumatlar qane etmir, başlayır tələbələri saymağa. Vay halına, əgər sinif nümayəndələrinin məlumatı ilə auditoriyadakı tələbələrin sayı düz gəlməyə. Günahkar sinif nümayəndəsi məhşər ayağına çəkiləcək. Aradan bir az keçmiş dekan müavini öz jurnalı ilə, ardınca universitet həmkarlar təşkilatının, tələbə həmkarlar təşkilatının nümayəndələri dərsə davamiyyəti yoxlayırlar. Adamda belə təsəvvür yaranır ki, təhsildə dərsə davamiyyətdən mühüm göstərici yoxdur. Əslində isə bu yoxlamalar tələbəyə, müəllimə təsir vasitəsindən başqa bir şey deyil. Dərsə davamiyyəti pozanlar "qara siyahı"ya düşürlər. Oradan çıxmaq heç də asan başa gəlmir. Universiteti "alt-üst" edən dələduzların isə heç gözünə də üfürmürlər.

İmtahan vaxtı bir də görürsən həmin yoxlamaları aparanlar öz jurnalları ilə təşrif buyurdular. Müəllimi "imtahan"a çəkirlər: bu tələbə çox dərs buraxıb, necə qiymət ala bilib, bu tələbə isə bir saat da dərs buraxmayıb, amma kəsilib. Guya müsbət qiymət almaq yalnız dərsə gəlməkdən asılıdır.

Bakı Dövlət Universitetinin rektoru hörmətli

Abel müəllim müsahibələrinin birində bildirirdi ki, universitetin 600 yerlik yeməkxanasında bir nəfər də olsun siqaret çəkənə, qoyulmuş qayda-qanunu, kiminsə rahatlığını pozanlara rast gəlməzsiniz.

Bu, doğrudan da, belədir. Çünki bünövrə belə qoyulub. Yeməkxananın xidmətindən istifadə edənlər bilirlər ki, burada hər hansı qayda-qanun pozuntusuna yol vermək olmaz, əks halda, birbaşa rektorun qəzəbinə tuş gələrsən, çünki bu işə o nəzarət edir. İndi heç nəzarətə də ehtiyac yoxdur, çünki mexanizm işə düşüb.

Kaş ki, BDU-nun 600 yerlik yeməkxanasında yaradılmış qayda-qanun, nizam-intizam 60 yerlik auditoriyamızda da yaradılaydı.

Belə bir məntiqi sual verilə bilər ki, əgər təhsil sistemində tərbiyə məsələsi mən yazdığım kimi acınacaqlı, dözülməz vəziyyətdədirsə, niyə müəllimlər haray salmır, ölçü götürülməsini tələb etmirlər.

Elə xəstəliklər var ki, xəstə utandığından dərdini heç həkimə də demir. Nəticədə, xəstəlik daha da şiddətlənir, ağır fəsadlar verir, müalicəsi çətinləşir.

Özünə az-çox hörmət edən müəllim hansısa dekana, prorektora tələbə qarşısında aciz qaldığını etiraf edə bilməz. Birincisi, ona görə ki, mübahisənin ədalətlə araşdırılacağına, ölçü götürüləcəyinə inanmır. İkincisi, ona görə ki və ən pisi, müəllim metodikasının müasir standartlara uyğun gəlməməkdə, yaşlı olmasında və başqa qüsurlarda günahlandırılacaq.

Mən xarici ölkələrdə olanda bir təhsil işçisi kimi həmin ölkədə təhsilin vəziyyəti ilə maraqlanıram. Xüsusilə, təhsildə tərbiyə məsələsi ilə. İranda, Türkiyədə gördüklərim mənim üçün gözlənilən idi. Çünki bu ölkələrdə tərbiyə məsələlərinə (xüsusilə gənclərin) fövqəladə fikir verirlər.

Türkiyədə mənə bildirdilər ki, tərbiyəsizlik üzündən təhsil müəssisəsindən xaric edilmiş tələbələr yenidən bərpa olunma hüququndan məhrumdurlar. Halbuki, akademik borclarına görə xaric olunmuş tələbələrin yenidən bərpa olunmaq hüququ var.

Ukraynada gördüklərim isə mənim üçün gözlənilməz idi. Çünki Ukrayna da bizim kimi sovet təhsil sisteminin mövcud olduğu, Sovet İttifaqından ayrılıb müstəqillik qazanmış bir ölkədir. Kiyevdə olduğumu bilən tanış həmkarlarım məni sentyabrın birində keçirilən (Ukraynada yeni tədris ili sentyabrın birində başlayır) bilik bayramına dəvət etdilər. Rəsmi təbirlərdən sonra dərslər başladı.

40 mindən çox tələbənin təhsil aldığı Ukrayna Milli Texniki Universitetinin (KPİ) auditoriyalarındakı, tədris kabinetlərindəki, dəhlizlərindəki sakitlik, işgüzarlıq, yaradıcı mühit gözümdən yayınmadı (dəhlizin bu başından o başına kimisə haraylayan, qışqıra-qışqıra danışan, auditoriyalarda qaçdı-tutdu oynayan, bir-birinə qələm, dəftər tolazlayan tələbələrimiz gözümün önünə gəldi).

50-60 tələbə qarşısında mühazirə oxuyan cavan müəllim məndə həsəd hissi oyatdı. Mühaziräni yazmamaq, müəllimə qulaq asmamaq, kənar işlərlə məşğul olmaq, deyəsən, tələbələrin ağlına belə gəlmirdi.

Mənə məlumat verdilər ki, professor xəstələndiyindən onu assistenti əvəz edir (yenə də, qeyri-ixtiyari özümüzdəki vəziyyət gözümün önünə gəldi: professorun nüfuzu, imtahan amilinə görə tələbələr onu yola verə bilərlər, ancaq onu müvəqqəti əvəz edən şəxsi – heç vaxt. Onu elə hoydu-hoyduya götürərlər ki, müəllim başını tutub qaçar).

Gördüklərimdən məmnun qaldığımı həmkarlarımdan gizlətmədim və buna necə nail olduqlarını soruşdum. Mənə məlumat verdilər ki, müstəqilliyin ilk illərində, bütün ölkədə olduğu kimi, təhsil sistemində də bir xaos vardı. Lakin hamı başa düşürdü ki, təhsildə xaosa yol vermək olmaz. Bu, ölkənin məhvidir. Odur ki, təhsil naziri, rektorlar təhsil

sistemində nizam-intizamı, qayda-qanunu bərpa etmək üçün ciddi tədbirlər gördülər və bu da öz bəhrəsini tezliklə verdi. İndi hər bir tələbə bilir ki, o, universitetə yalnız təhsil almaq üçün gəlib. Onun hər hansı bir formada dərsi pozmaq cəhdi ən ağır cəza ilə nəticələnə bilər. Burada tələbəyə qarşı qərəzçiliyə, şər atmağa yer yoxdur. Çünki tələbə yaramaz hərəkətlərini onlarla tələbənin, müəllimin şahidliyi ilə edir. Odur ki, belə dələduzlara aman vermirik və heç kim belələrinə himayədarlıq edə bilməz.

Yenidən öz dərdimizlə qayıdaq özümüzə. Gəlin belə bir eksperiment aparaq: tanıdığınız 100 müəllimə "təhsil sistemində tərbiyə məsələsi nə vəziyyətdədir?" sualını verin. Əminəm ki, onlardan 95-i "dözülməz, bərbad haldadır" deyəcək. Əgər həmin müəllimlərə həmin sualı hörmətli Təhsil naziri versə, yenə də əminəm ki, onlardan 97-i "elə bir problem yoxdur" deyəcək. Səbəbi – mentalitetimizdən irəli gəlir.

Yeni tədris ilindən ali məktəblər üçün yeni situasiya yaranacaq: bəzi universitetlərin bəzi fakültələri, ixtisasları üzrə məşğələ dərsləri, mühazirələrdə olduğu kimi, bir neçə qrupun birləşməsi ilə eksperiment şəklində aparılırdısa, indi bu qaydalar universitetlərin bütün fakültələrini və ixtisaslarını əhatə edəcək. Beləliklə, yeni tədris ilindən məşğələ dərsləri 50-60 tələbənin iştirakı ilə keçiriləcək. Müəllim istəyirəm ki, belə bir tərkibdə səmərəli dərs apara bilsin.

Sovet dövründə qrupda tələbələrin sayı 15-dən çox olduqda məşğələ dərsləri üçün bu qrupu bölürdülər. Məşğələ dərsləri fərdi yanaşma, tələbələrdə praktiki vərdiş yaratmaq üzərində qurulurdu. 50-60 tələbə olan auditoriyada hansı fərdi yanaşmadan söhbət gedə bilər? Belə bir məşğələdə çətin ki, ağız deyəni qulaq eşitsin. Burada müəllim məharətinə də yer yoxdur. Yəqin ki, bu eksperimentdə yeganə məqsəd qrupları birləşdirməklə dərs saatlarını süni surətdə aşağı salmaqdır. Çünki pedaqogikanın bütün qanunlarına görə məşğələ dərslərində qrupların birləşdirilməsi tədrisin keyfiyyətinin aşağı düşməsinə gətirəcək.

Bizim müəllim-tələbə münasibətlərimizdə danılmaz bir reallıq var: müəllim nüfuzu, imtahan faktoru bu münasibətlərdə həlledici amillərdir. Heç də tələbələrimizin hamısı elmə yiyələnmək, bilik qazanmaq eşqi ilə yaşamır, şüurla hərəkət etmir. Əgər əvvəllər imtahan amili, müəllimin bu prosesə təsiri belə tələbələri müəyyən çərçivələrdən kənara çıxmağa qoymurdusa, indi onlar öz tərbiyələrinə uyğun hərəkət edəcəklər. Mən heç də müəllimin imtahandan tələbəyə qarşı bir təsir imkanı kimi istifadə etməsini istəmirəm. Mənə elə gəlir ki, əsl müəllimlərin heç buna ehtiyacı da yoxdur. Mənim arzum müəllimin rahat işləməsi, öz müəllimlik borcunu yerinə yetirməsi üçün müvafiq şəraitin yaradılmasıdır. Tələbə özbaşınalığına, tələbə tərbiyəsizliyinə heç cür göz yummaq olmaz. Dələduzlara ali məktəblərdə yer olmamalıdır.

Hörmətli həmkarlarım! Artıq bıçaq boğaza dirənib. Susmaq vaxtı deyil. Öz xatirinizə, əsl təhsil almaq istəyən minlərlə tələbənin xatirinə dərdinizi gizlətməyin, bu dərd sizin günahınızdan yaranmayıb. Dərdinizi "baş həkimə" – Təhsil nazirinə, "həkimlərə" – rektorlara, direktorlara açın, bu dərdin əlacı onların əlindədir.

Hörmətli cənab nazir! Hörmətli rektorlar, direktorlar! Müəllimlərdən heç nə soruşmayın, onsuz da onlar mövcud reallığı etiraf etməyəcəklər. Mənim yazdıqlarımı minlərlə müəllimin imza ata biləcəyi bir yazı kimi qəbul edin. Mən yalnız gördüklərimin, eşitdiklərimin bir qismini, tələbələrin danışdıqlarını qələmə aldım.

Hərəkət sizdən, bərəkət bizdən.

Xəlil MƏCIDOĞLU
E-mail: khalil_majid@mail.ru

S&P BIRA Report Says Azerbaijan's Young, Fragmented Banking System Increasingly Affected By Global Crisis

MOSCOW (Standard & Poor's) May 25, 2009, Standard & Poor's Ratings Services published a first full report on Azerbaijan banking system titled «Bank Industry Risk Analysis: Azerbaijan's Young, Fragmented Banking System Increasingly Affected By Global Crisis,». In the report Standard & Poor's Ratings Services said that the Azeri banking sector is vulnerable to potential credit quality and liquidity deterioration after several years of very rapid growth, due to the high industry and economic risks facing the country's young and fragmented banking system.

High dollarization, the dependence of the economy on oil production, banks' single-name and industry concentrations, and weak risk-management practices characterize the banking system in the Republic of Azerbaijan (BB+/Stable/B).

However, the system enjoys decent medium-term prospects for macroeconomic growth. Banks' dependence on international borrowings and speculative operations is limited. They are adequately capitalized and have performed well financially.

For these reasons, Azerbaijan's banking system has been spared some of the global economic turbulence that has slammed many other countries in the Commonwealth of Independent States. However it remains vulnerable to possible negative changes in the macroeconomic environment and represents high risk in the global context. This is reflected by its Bank Industry Country Risk Assessment score of '9' (out of '10', '1' is the strongest).

State-owned International Bank of Azerbaijan (not rated) dominates the market, with a 43% share in terms of assets, followed by about 45 private sector banks that hold a market share of 7% or less each.

Until very recently, Azerbaijan was the leading destination for foreign direct investment in the region. However, it was spread unevenly between economic sectors, with oil production dominating (oil contributed 60% of Azerbaijan's GDP in 2008). The investment environment is consequently sensitive to investors' dependence on political stability, the government's commitment to reforms, and continued GDP growth. We expect Azerbaijan's economic growth to decelerate to 4.0% in 2009 against 8.5% in 2008, following a sharp decrease in oil prices.

At year-end 2008, 49% of total system loans were denominated in foreign currencies, highlighting local banks' asset-quality vulnerability to an unlikely, but possible, devaluation of the local currency.

We believe deteriorating credit conditions and the slowdown in growth will lead to a significant rise in banks' credit costs and problem loans. We estimate gross problematic assets for Azerbaijan's financial system to be in the 35%-50% range.

We consider Azerbaijan to be «supportive» of its banking system (see «Criteria | Financial Institutions | Banks: External Support Key In Rating Private Sector Banks Worldwide,» published on Feb. 27, 2007, on RatingsDirect). Under this approach, we give no ratings uplift to private-sector banks for potential government support. During times of financial stress, the authorities are likely to increase supervision and regulation of troubled entities, but, in our opinion, would provide only limited extraordinary financial support to privately owned banks.

Azerbaijan's operating environment is becoming increasingly risky for banks. Azerbaijan has a «pervasive» perceived level of corruption according to Transparency International's corruption perception index. Azeri banks are exposed to high credit risk due to their unseasoned loan portfolios, expansion into new segments like retail banking, and the weak judicial system hindering problem loan workout and collateral repossession.



Aqşin MEHDIYEV

Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsi, fövqəladə və səlahiyyətli səfir

Nyu -Yorkda çıxan "Novıy Meridian" qəzetində Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsi, fövqəladə və səlahiyyətli səfir Aqşin Mehdiyevin məqaləsi dərc edilmişdir. Toxunulmuş məsələlərin aktuallığını nəzərə alaraq, həmin məqalənin AzərTAc tərəfindən yayılmış tərcüməsini oxucuların diqqətinə çatdırırıq.

AÇIQ İRQÇİLİK TƏBLİĞATI

VƏ YAXUD ERMƏNİ "KİNOREJİSSOR"UN XƏSTƏ TƏXƏYYÜLÜ

MİRUMYANIN KSENOFOB SAYIQLAMALARI

"Kinorejissor" A.Mirumyanın "Novıy Meridian" qəzetində dərc edilmiş "Soyqırım" məqaləsi, xüsusən onun təhqiredici üslubu heç kimi bu məqaləyə biganə qoya bilməz. Məqalə müəllifi sadəlövhcəsinə qəzetin oxucularında erməni xalqının "faciələrinə" mərhəmət yaratmağa ümid edir. "Böhtan yayan", "insanlıqdan uzaq" olanlara, "rəzillərə", "ikiüzlülərə", "başdan-ayağa qana bulaşmış cəlladlara" - həmvətənlərinin bütün bəlaları və əzablarının günahkarlarına nifrət hissi aşılanmasına cəhd edən Mirumyan özünün ksenofob sayıqlamalarını çox da gizlətmir və həqiqətdə tamamilə əks nəticəyə nail olur. Məqalə müəllifinin ümumbəşəri dəyərlərə və sağlam düşüncəyə yaraşmayan irqçi mövqeyi, insanların dini hisslərinin təhqir edilməsi və bu zaman açıq saxtakarlığa yol verilməsi haqlı hiddət və qəzəblə qarşılanmaya bilməz.

Aydındır ki, müəllifin bütöv xalqlara, dini və siyasi xadimlərə belə payladığı "komplimentlər"i onun öz mövqeyinə əxlaqi don geyindirmək cəhdləri üçün gətirdiyi faktların kontekstində nəzərdən keçirmək vacibdir. Əgər erməni "kinorejissor"un dilindən çıxanların hamısını toplasaq, onun fikrincə, maraqlı mənzərə yaranar: birincisi, guya ermənilər məskunlaşdıqları torpaqları nəcibləşdirmişlər, hələ bu azmış, özlərinin mövcudluğu ilə bütün bəşəriyyəti zənginləşdirmişlər. O zaman Azərbaycan və Türkiyə yox idi. İkincisi, "cəllad" azərbaycanlılar türklərlə birlikdə haradansa peyda olmuşlar və "bədbəxt" ermənilərin üstünə tökülüşərək, onların "əzəli" torpaqlarını guya özününküləşdirmişlər və ermənilərı bütün vasitələrlə qıraraq, öz torpaqlarından çıxarmışlar. Üçüncüsü, ermənilərə qarşı şübhə yoxdur ki, guya sui-qəsd mövcuddur; belə ki, "böhtan yayan", "insanlıqdan uzaq" olanlara, "əzabkeş" ermənilərə qarşı "rəzil" üsullarla "xəbis" planlar həyata keçirənlərə "bütün məzlumların dostları", "pişikləri sevənlər", "siyasi fırıldaqçılar", "kommunizm quruculuğu podratçıları", "ayı ovçuları", "əlaltı olanlar" və "Nobel mükafatı laureatları" hər cür kömək göstərmişlər. Dördüncüsü, erməni xalqı bu "sui-qəsddən" güclü olmuş, "riyakarların üzündən maskanı qoparmış", "azadlıq bayrağını yüksəltmiş" və "azərbaycanlıların çirkli ağuşundan xilas olmuşdur".

Mirumyanın məqaləsi heç də təsadüfi olaraq "Soyqırım" adlandırılmamışdır. Yaxşı məlumdur ki, Ermənistanda və erməni diasporları mühitində "soyqırım" termini çoxdandır ki, hüquqi anlayışdan mücərrəd fenomenal təzahürə çevrilmişdir. Erməni cəmiyyəti qonşu xalqlara nifrət və düşmənçilik hissini aşılamaq, ərazi iddiaları üçün ideoloji əsas yaratmaq və özlərinin törətdikləri cinayətlərə bəraət qazandırmaq məqsədilə nəsildən-nəslə bu fikri yürüdür. Bəşəriyyətin daha çox sülh, sabitlik və əməkdaşlıq barədə düşündüyü bir vaxtda erməni siyasətçilərinin və onların tərəfdaşlarının uydurulmuş ittihamlar vasitəsilə bütöv bir xalqı məhkəməyə cəlb etmək cəhdləri yalnız

milli və dini ədavətin qızışdırılmasına və gərginliyin artırılmasına xidmət edir.

Bundan başqa, hətta ən mahir təbliğat belə heç vaxt real vəziyyəti təhrif etməyə qadir deyil. Mirumyan kimi erməni ideoloqlarını və onların ardıcıllarını məyus edən səbəb isə aydındır – ermənilərin düşmənçilik və nifrət konsepsiyası dağılmaqdadır, təkzibolunmaz faktlar bunun yalançı mahiyyətini aşkar edir.

TARİX ERMƏNİLƏRİ İFŞA EDİR

Gəlin, hər şeyi ardıcıllıqla nəzərdən keçirək. Arxiv materialları, həmçinin erməni tarixçilərinin tədqiqatları sübut edir ki, Qarabağ eramızdan əvvəl IV əsrdən Rusiyanın Azərbaycanı işğal etdiyi XIX əsrin əvvəllərinə qədər azərbaycanlıların sələflərinin Azərbaycan ərazilərində yaratdığı bütün dövlət qurumlarının tərkib hissəsi olmuşdur. Eramızdan əvvəl IV əsrdən eramızın VIII əsrinə qədər Qarabağ cənubda Araz çayından başlayaraq, şimalda Dərbəndə qədər ərazini əhatə edən Qafqaz Albaniyasının bir hissəsi olmuşdur. IV əsrdə Qafqaz Albaniyasında xristianlıq rəsmi din elan edilmişdir. Qafqaz albanları Qafqazın yerli xalqlarından biri və müasir azərbaycanlıların sələflərıdir. Onların öz əlifbası və ədəbiyyatı olmuşdur. Qarabağdakı çoxsaylı qədim memarlıq abidələri ermənilərə deyil, məhz Qafqaz albanlarına məxsusdur. Mirumyan isə həmin abidələrin heç bir əsas olmadan ermənilərə aid olduğunu qələmə verməyə çalışır. Bu regionun Ermənistan tərəfindən işğalı şəraitində Azərbaycan şəhərlərinin, kəndlərinin, qəsəbələrinin simasını, habelə həmin ərazilərdəki memarlıq və mədəniyyət abidələrini özününküləşdirmək üçün məqsədyönlü səylər göstərilir.

VIII əsrin əvvəllərində ərəblər bu regionu işğal etdikdən sonra islam dini Azərbaycanda tədricən əsas dinə çevrilir.

IX-XIV əsrlərdə Qarabağ Azərbaycanın Səcidlər, Salarilər, Şəddadlar, Atabəylər, Cəlairlər dövlətlərinin tərkibinə daxil olmuşdur. XV əsrdə Qarabağ Azərbaycanda Qaraqoyunlu, sonra Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdur. XVI əsrdən başlayaraq Qarabağ (Gəncə) Bəylərbəyliyinin hissəsi hesab edilən Qarabağ Səfəvilər dövlətinin tərkibində olmuşdur. XVI əsrdən XIX əsrə qədər Qacarlar tayfasından türk (azərbaycanlı) olan Ziyadoğlu nəsli Qarabağın sahibi olmuşdur.

XVIII əsrin ortalarında Azərbaycan ərazilərində xanlıqlar yaranmışdır. Onlardan biri də Qarabağ xanlığı idi. Qarabağ xanlığı Kür və Araz çayları arasındakı ərazilərdə yerləşmişdi və burada əsasən azərbaycanlı müsəlmanlar məskunlaşmışdı. 1805-ci il mayın 14-də azərbaycanlı İbrahimxəlil xan Rusiya imperatorunun nümayəndəsi general Sisyanovla Qarabağ xanlığının Rusiyanın hakimiyyəti altına keçməsi barədə müqavilə imzaladılar. Həmin sənəd Qarabağın Azərbaycana tarixi mənsubiyyətinə əsaslı sübutdur.

Rusiyanın 1810-cu ilə aid rəsmi məlumatlarına görə, Qarabağ xanlığında 12 min ailə var idi, bunun 9500-ü Azərbaycan və yalnız 2500-ü erməni ailəsi idi. 1823-cü ilin məlumatları sübut edir ki, Qarabağ xanlığında yalnız bir şəhər – Şuşa şəhəri və 600-ə yaxın kənd (bunun 450-si azərbaycanlılara və 150-yə yaxını ermənilərə məxsus idi) vardı. Şəhər və kəndlərdə 90000 əhali yaşayırdı. Şuşada təqribən 1048 azərbaycanlı və 474 erməni ailəsi, kəndlərdə isə müvafiq olaraq 12902 və 4331 ailə yaşayırdı.

XIX əsrin birinci yarısında Rusiya-İran müharibələrinə son qoymuş 1813-cü və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay sülh müqavilələri Qarabağ xanlığı da daxil olmaqla, Şimali Azərbaycanın Rusiyanın tərkibinə qatılması ilə nəticələndi. Məhz həmin dövrdə ermənilərin kütləvi surətdə Cənubi Qafqaza, xüsusilə indiki Ermənistanın ərazisinə və hazırda Dağlıq Qarabağ adlandırılan Azərbaycan regionuna köçürülməsinə başlanmışdır.

Rus alimi N.Şavrovun etiraf etdiyinə görə, təkcə 1828-ci ildən 1830-cu ilə qədər Cənubi Qafqaza 40000 İran və 84000 Osmanlı ermənisi köçürülmüşdür (N.Şavrov, "Zaqafqaziyada rus işinə yeni təhlükə. Muğanın xaricilərə gözlənilən satışı"). 1893-1894-cü illərdə ermənilərin daha geniş miqyasda köçürülməsinə rəvac verilmişdir. Məşhur rus diplomatı və yazıçısı A.Qriboyedov yazırdı: "ermənilər ən çox mülkədar müsəlmanların torpaqlarında yerləşdirilmişdir... Köçkünlər... müsəlmanları sıxışdırırlar... Biz, həmçinin müsəlmanları yaranmış mövcud çətinliklərin müvəqqəti olduğuna inandırmaq və ermənilərin ilk dəfə buraxıldığı torpaqları həmişəlik ələ keçirə biləcəklərinə dair qorxunu aradan qaldırmaq üçün çox çalışırdıq" (A.Qriboyedov, "Ağıldan bəla. Məktublar və qeydlər"). Rəsmi statistik məlumatlara görə, 1831-ci ildən 1916-cı ilə qədər olan dövrdə Qarabağa köçürülmüş ermənilərin sayı 6 dəfədən çox artmışdır. Ermənilərin İrəvan regionunda daha çox güclü artımı müşahidə olunmuşdur. Burada 1829-cu ildən 1916-cı ilə qədər ermənilərin sayı 8 dəfə artmışdır.

Ermənilərin sayının artması eyni vaxtda azərbaycanlıların məskunlaşdığı torpaqlardan sıxışdırılıb çıxarılması ilə müşayiət olunurdu.

(Ardı 22-ci səhifədə)

Poeziya



NAZIM HIKMƏT

DÜNYANIN ƏN YAZIQ MƏXLUQU

Əqrəb kimisən, qardaşım,
Qorxaq bir qaranlıq içindəsən,
əqrəb kimi...
Sərçə kimisən, qardaşım,
Sərçənin tələşi içindəsən.
İlbiz kimisən, qardaşım,
İlbiz kimi örtülü, rahat
Və sönmüş bir yanardağ ağzı kimi qorxuncsan,
qardaşım.
Bir deyil, beş deyil,
yüz milyonlarcasan, təəssüf...
Qoyun kimisən, qardaşım,
yapıncılı çoban qaldıran kimi çomağın
sürüyə qatılırsan
və məğrur-məğrur gedirsən sallaqxanaya.
Yəni dünyanın ən yazıq məxluqusan sən.
Dəryada yaşayıb
dəryanı tanımayan balıqdan da betərsən.
Bu dünyada bu zülm sənin üzündəndir.
Əgər biz acıqsa,
yorğunuqsa,
al-qan içindəyiksə,
şərabımızı verməkçün
üzüm kimi əziliriksə, günah sənin
- deməyə dilim gəlmir, -
amma günahın çoxu sənin,
canım qardaşım!..

Tərcümə: **Cavid Cəfərzadə**



OLJAS SÜLEYMENOV

İSTİ

Nə gözəl qadındı bu
açıb qollarını, yatmış
tozlu alma ağacının altında
bir təpənin başında.
Əzilmiş yoncaların üstündə
vızıldayır bal arıları.
Qadının döşlərini
örtmüş əlvan gün işığı.

At belindəyəm,
keçirəm təpənin yanından.
Nə gözəl bir qadın!
Yerə yayılmış saçları!
Utanaraq başını çevirir atım...

Tərcümə: **Gülər Vəli**

BÜLƏNT ECEVIT



MAĞARA

Mağaranın divarına
heyvanları daşdan oydum
kükrədilər qaranlıqda...

Qaranlıqdı mağara
işığı daşdan oydum,
üşüyürdüm
bir də günəş qoydum.

Sevgi oydum mağaranın
divarına
sevgi oydum,
ağrıdı daşlar
yarıldı mağara.

KƏNDLİ QADINLAR

Kəndli qadınlar
donları güllü qadınlar.
Torpaqdan doğub, torpağı
yoğurandır onlar
qurbanlıq canları doğurandır
onlar.

Kəndli qadınlar
donları güllü qadınlar.
Üzləri günəşdir onların-yanıq,
ayaqları torpaqdır onların-yarıq.
Doymadan gözəlliyinə
tarlada solandırlar.

Tərcümə: **Cavid Cəfərzadə**

YEVGENI YEVTUŞENKO




ÖZGƏ DƏRDİ

Dünyada var elə
Xoşbəxt ailələr, bəxtiyar evlər...
O kəslər üçün ki,
Yaşamaq, ömr etmək
bacarıqdandır.
Onlardan ötəri yad bədbəxtliyi
Təəssüf doğuran xırda yalandır.
Evlər tanıyıram-min bir nemətli.
Nəğməli, səs-küylü, şirin söhbətli,
Səni qonaq edər dadlı biş-düşə.
Ancaq ev sahibi
Yanğından qorxan tək qorxur həmişə,
Qorxur bir mövzudan-
Özgə kədərindən, özgə dərdindən,
Hansı bədbəxtinsə fəlakətindən.
Bir evin tərtəmiz tualetində
Qapqara it başlı dezodorant var,
Oyanır adamın titrək qorxusu.
Mənə elə gəlir, sanki havadan
Asılıb sabunlu kəndir qoxusu.
Heyrət eləyirəm silib gözümü;
Kəndir qonaqların başının üstə
Bu evin sahibi sanır özünü.
Burda başqasının bədbəxtliyindən
Söz salan adlanır kobud və nadan.
Bu evdə kəndirlər
Asılan haqqında susur hər zaman.

Tərcümə: **Rövzət Dəmirçizadə**

MƏLIH CEVDƏT ANDAY



FƏLSƏFƏ

Kölə sahibləri çörək dərdi
çəkmədikləri üçün filosofluq
edirdilər,
Çünki çörəklərini kölələr verirdi
onlara;
Kölələr çörək dərdi çəkmədikləri
üçün filosofluq etmirdilər,
Çünki çörəklərini kölə sahibləri verirdi onlara.
Və dağılıb getdi Likiya*.

Kölələr fəlsəfə dərdi çəkmədikləri üçün çörək
yapırdılar,
Çünki fəlsəfələrini kölə sahibləri verirdi onlara;
Fəlsəfə sahibləri kölə dərdi çəkmədikləri üçün çörək
yapmırdılar,
Çünki kölələrini fəlsəfə verirdi onlara.
Və dağılıb getdi Likiya.

Fəlsəfənin çörəyi yoxdu,
Çörəyin fəlsəfəsi.
Və sahibsiz fəlsəfənin çörəyini,
Sahibsiz çörəyin fəlsəfəsi yedi.
Çörəyin sahibsiz fəlsəfəsini
Fəlsəfənin sahibsiz çörəyi.
Və dağılıb getdi Likiya.

Likiya-e.ə. I minillikdə Türkiyənin Antaliya əyalətinin ərazisində mövcud olmuş dövlət.*

Tərcümə: **Ağalar Məmmədov**

(Əvvəli 19-cu səhifədə)

ERMƏNİLƏRİN AZƏRBAYCANLILARA VƏ TÜRKLƏRƏ QARŞI HƏYATA KEÇİRDİKLƏRİ SOYQIRIM

İrimiqyaslı zorakılıq əvvəlcə Bakıda 1905-ci il fevralın 6-da başlandı. O, növbəti ildə də davam etdi və Cənubi Qafqazın müsəlman (azərbaycanlı) və erməni əhalisinin qarışıq şəkildə yaşadığı digər yerlərə də yayıldı. Dağlıq Qarabağ döyüşlərin əsas mərkəzi idi. Ümumi insan itkisinin sayı 3100-10000 arasındadır. Verilən məlumatlar sübut edir ki, azərbaycanlılar böyük itkiyə məruz qalmışlar.

Birinci Dünya müharibəsi başlanan kimi ermənilər "Böyük Ermənistan" şüarını irəli sürərək, Osmanlı ordusunun arxasında ikinci cəbhə açdılar və Türkiyənin Şərq vilayətlərinin dinc əhalisinə qarşı cəza əməliyyatlarına başladılar. 1915-ci il mayın 17-də erməni hərbi dəstələri Vanı ələ keçirdilər, "Van erməni respublikası" yaradılmasını bəyan etdilər və şəhərin müsəlmanlar yaşayan hissəsini tamamilə dağıtdılar. Törədilmiş zorakılıqlar nəticəsində 30000-ə yaxın müsəlman qətlə yetirildi. Hərbi şəraitlə əlaqədar xəyanət və satqınlığa cavab olaraq Osmanlı hökuməti 1915-ci il iyunun 1-də etibarsız erməni əhalisinin döyüş əməliyyatları zonasından köçürülməsi barədə sərəncam verdi. 1915-ci ilin hadisələrini soyqırımı adlandıran erməni müəlliflər, o cümlədən Mirumyan həmin dövrdə ermənilərin əldə rəhbər tutduqları xəyanət və zorakılıq siyasətinə aydınlıq gətirən mühüm detallardan yan keçirlər. Böyük dövlətlərin vədlərinə arxalanan silahlı erməni dəstələri yüz minlərlə dinc Türkiyə vətəndaşını qətlə yetirmişlər. Buna görə də, "ermənilərin soyqırımı" adlı birtərəfli təbliğat erməni terroru və zorakılığı qurbanlarının xatirəsinin təhqir olunması kimi qəbul edilir.

SAXTA "SOYQIRIM" VERSİYASI

Ermənilərin "soyqırımı" versiyası erməni ideoloqlarının öz arqumentlərinə həqiqət donu geyindirməyə tez-tez əl atdıqları qərəzli və kobud saxtalaşdırmaya görə ciddi şübhələr yaradır. Çox vaxt bu, gülünc həddə çatır. Məsələn, bütün dünya ermənilərinin hər il aprelin 24-də keçirdikləri bədnam "soyqırımı" günü mən dəfələrlə müxtəlif ölkələrin televiziya ekranlarında və nəşrlərində "ermənilərə qarşı törədilmiş cinayət hərəkətləri" barədə informasiya mətni ilə yanaşı, məşhur rus rəssamı Vasili Vereşşaginin səhrada insan kəllələrindən yaranmış dağı təsvir edən "Müharibənin ən yüksək həddi" rəsminin yerləşdirildiyini və bu rəsmin "soyqırım"ın dəhşətlərini göstərən fotoşəkil kimi qələmə verildiyini görmüşəm. Əlbəttə, bu, həmin rəsm əsərinin göstərilən hadisələrdən çox-çox əvvəl - 1871-ci ildə çəkildiyini bilməyən meşşanlar üçün hesablanmışdır. Bu cür digər saxtalaşdırma isə ermənilərin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində törətdikləri kütləvi qırğının qurbanlarının şəkilləri ilə əlaqədardır. Təkcə bir gecədə, ümumilikdə Xocalının 613 dinc sakini, o cümlədən 63 uşaq, 106 qadın və 70 qoca amansız vəhşiliklə öldürülmüşdür. Erməni yazarları isə öz maraqları naminə Xocalı faciəsinə aid fotosənədlərdən abırsızlıqla istifadə edirlər. Nyu-Yorkda rus dilində çıxan "В новом свете" qəzetinin 2007-ci il 19-25 oktyabr tarixli 42-ci nömrəsində vəhşicəsinə öldürülmüş Xocalı uşaqlarının şəkilləri ilə yanaşı, Edvard Paryans adlı şəxsin materialı dərc edilmişdir. Burada bildirmişdir ki, ABŞ tərəfindən ermənilərin soyqırımının tanınması barədə ABŞ Konqresində məsələ qaldırılmışdır. Son nəticədə, hiddətlənmiş oxucuların etirazlarından sonra qəzetin redaksiyası oxuculardan üzr istəmiş və təkzib vermişdir. Hadisələrin bu və digər qərəzli şəkildə təhrif olunması heç bir şübhə yeri qoymur ki, biz təsadüfi səhvlərlə deyil, əyani nümayəndələrindən biri "kinorejissor" Mirumyan olan erməni təbliğatının məqsədyönlü böhtanları ilə qarşılaşırıq. Belə bir digər halı xatırlamıram ki, ağır cinayətlərdən zərər çəkmiş və xeyli insan itkisi ilə üzləşmiş tərəf ədalətə nail olmaq üçün bu cür mənfur üsullara əl atmış olsun. Ermənilərin saxtakarlığına biz hələ qayıdacağıq, indi isə xronoloji təhlili davam etdirək.

BAKI SOVETİ – DAŞNAKSÜTYUN ALYANSININ BAKIDA TÖRƏTDİYİ MART QIRĞINI

Bolşeviklər 1917-ci ilin oktyabrında çevriliş etdikdən sonra Bakıda hakimiyyət müəyyən müddətə Bakı Sovetinin əlinə keçdi. Bakı Soveti İcraiyyə Komitəsinin sədri "daşnaksütyun" millətçi erməni partiyası ilə fəal əməkdaşlıq edən bolşevik partiyasının üzvü S.Şaumyan idi. Bolşevikləri və daşnakları minimum bir ümumi fikir birləşdirirdi. Həm bolşeviklər və həm də daşnaklar Azərbaycanda milli-azadlıq hərəkatını boğmaq istəyirdilər. 1918-ci ilin mart ayında Bakı Sovetinin daha çox ermənilərin daxil olduğu hərbi qüvvələri Bakıda dəhşətli qırğınlar törətdilər. Təkcə bir gündə - martın 31-də 30000-dən çox azərbaycanlı

öldürüldü. Ermənilərin azğınlığı Azərbaycanın digər şəhərlərində də davam etdi. Ümumilikdə, 1918-ci ilin mart-aprel aylarında erməni-bolşevik silahlı dəstələri tərəfindən 50.000-dən çox azərbaycanlı qətlə yetirildi.

Lakin Bakı Soveti və ermənilərin millətçi qüvvələri Azərbaycan xalqının müstəqilliyə doğru hərəkatını dayandıra bilmədi.

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCAN TORPAQLARININ ERMƏNİSTAN TƏRƏFİNDƏN İŞĞALI

Azərbaycan 1918-ci il mayın 28-də müstəqilliyini bəyan etdi.

Osmanlı imperiyası ilə Böyük Britaniya arasında 1918-ci il oktyabrın 30-da imzalanmış Mudros sazişinin şərtlərinə görə, Cənubi Qafqazın Böyük Britaniyanın nüfuz dairəsinə daxil olduğu elan edildi. Elə həmin il Britaniya qoşunları Bakıya daxil oldu. Eyni vaxtda, müttəfiq dövlətlər Qarabağın dağlıq hissəsini qonşu Zəngəzur qəzası ilə birlikdə Azərbaycanın inzibati vahidi kimi tanıdılar və Azərbaycan hökuməti tərəfindən Xosrov Sultanovun Qarabağ general-qubernatorluğunun qubernatoru təyin olunmasını təsdiq etdilər. 1919-cu ildə Qarabağın dağlıq hissəsinin erməni assambleyası Azərbaycan hakimiyyətini rəsmən tanıdı. Bu, Azərbaycan hökuməti və Qarabağ ermənilər arasında 1919-cu il avqustun 26-da imzalanmış müvəqqəti sazişdə təsbit olundu. "Kinorejissor" Mirumyan və ona bənzər "ədalət mübarizləri" üçün tarixi araşdırmaları dəqiq aparmaq və Mirumyanın ifadə etdiyi kimi "siyasi fırıldaqçı", "kommunizm quruculuğu podratçısı", "yarıtmaz dövlət katibi", "ayı ovçusu" və "əlaltı olanlar" arasında şübhəli yazışmaları aşkar etməkdənsə, daha mühüm sənədləri tapmaq faydalı olardı.

Azərbaycan öz müstəqilliyini elan etdikdən bir gün sonra mehriban qonşuluq prinsipini rəhbər tutaraq və erməni tərəfinin müraciətini nəzərə alaraq, İrəvan qəzasının bir hissəsinin, o cümlədən İrəvan şəhərinin paytaxt kimi yeni yaradılmış, hətta ərazisi olmayan Ermənistan Respublikasına verilməsi barədə qərar qəbul etdi. O vaxt erməni tarixçilərinin bildirdiyi kimi, ərazisi 8000-9000 kv.km-dən 10000 kv.km-ə qədər olan bu erməni dövlətinin əhalisinin çox hissəsini azərbaycanlılar təşkil edirdi.

Lakin bununla kifayətlənməyən Ermənistan Zəngəzur, Naxçıvan və Qarabağın dağlıq hissəsi də daxil olmaqla, digər Azərbaycan torpaqlarına da iddialarını bildirdi. 1918-ci ilin yayında Andranikin başçılıq etdiyi başıpozuq erməni silahlı qüvvələri Azərbaycan əhalisinin məqsədyönlü şəkildə məhv edilməsi və doğma yurdlarından qovulması kampaniyasına başladılar. Ermənistan hökumətinin siyasəti ona istiqamətlənmişdi ki, terror və hədələr yolu ilə Azərbaycan əhalisini doğma yurdlarından çıxarsın və gələcəkdə bu torpaqlar erməni müstəmləkəsi altına keçsin. Nəticədə, həmin dövrdə Zəngəzurda və İrəvanda yüzlərlə Azərbaycan kəndləri dağıdılaraq məhv edildi, minlərlə adam öldürüldü, yüz minlərlə azərbaycanlı doğma torpaqlarından qovuldu. 1920-ci il martın 22-dən 23-nə keçən gecə erməni silahlı dəstələri Şuşa, Xankəndi və Qarabağın dağlıq hissəsində yerləşən digər yaşayış məntəqələrinə hücum etdi. Beləliklə, 1919-cu il 26 avqust tarixli müvəqqəti saziş birtərəfli qaydada pozuldu.

Ermənistanın ərazi iddiaları təkcə Azərbaycanla bitmir. Gürcüstanın Axalkalaki və Borçalı rayonlarının zorla Ermənistana birləşdirilməsi cəhdləri 1918-ci ilin axırlarında qanlı erməni-gürcü müharibəsinə səbəb oldu. Məhz Ermənistanın acgözlüklə öz ərazi məkanını qonşularının torpaqları hesabına genişləndirməsi cəhdləri üç Cənubi Qafqaz dövlətini bolşevik təhlükəsinə qarşı qüvvələri səfərbər etməyə və müstəqilliklərini qorumaq üçün birləşməyə imkan verməmişdir. O dövrün hadisələrinin şahidi Zurab Avalovun bildirdiyinə görə, "Ermənistanın ərazi iddialarının, qarşıya qoyduğu vəzifələrlə öz qüvvəsinin uyğun gəlməməsi, hadisələri və şəraiti qiymətləndirməkdə labüd korluğu arzuolunmaz siyasi nəticələrə gətirib çıxardı" (Zurab Avalov, "Gürcüstanın beynəlxalq siyasətdə müstəqilliyi, 1918-1921-ci illər").

AZƏRBAYCANDA SOVET HAKİMİYYƏTİ QURULDUQDAN SONRA AZƏRBAYCAN TORPAQLARININ İŞĞALININ DAVAMI

Cənubi Qafqazda Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan torpaqlarının Ermənistana verilməsi prosesi davam etdi. Belə ki, Ermənistanın sovetləşdirilməsi məqsədilə 1920-ci il noyabrın 30-da əhalisi əsasən azərbaycanlılardan ibarət olan Zəngəzur qəzasının qərb hissəsi Ermənistanın tərkibinə daxil edildi. Nəticədə, Naxçıvan Azərbaycanın əsas ərazisindən ayrı düşdü. Yalnız Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanıldı və bu regiona muxtar vilayət statusu verildi. Bu məsələ ilə bağlı mühüm dəqiqləşdirmələr aparmaq tələb olunur. Erməni ideoloqları məlum faktları cidd-cəhdlə qəbul etmək istəmirlər. Belə ki, Ermənistan

SSR-in Dağlıq Qarabağa iddialarına cavab olaraq RK(b) P MK Qafqaz Bürosu 1921-ci iyulun 5-də keçirilmiş iclasında belə bir qərar qəbul etdi ki, "...Dağlıq Qarabağ Azərbaycan SSR-in tərkibində saxlanılsın, ona Şuşa şəhəri inzibati mərkəz olmaqla geniş muxtariyyət verilsin..." Beləliklə, Dağlıq Qarabağı Mirumyanın ifadə etdiyi kimi Azərbaycanın tərkibinə "verməyiblər" və "daxil etməyiblər". Erməni müəlliflər bu zaman bir məsələnin üstündən sükutla keçirlər ki, muxtar vilayətin inzibati sərhədləri elə müəyyən edilmişdir ki, erməni əhalisinin sayca üstünlüyü təmin olunsun. Mirumyan və onun kimi ərazi iddiasında olan erməni ideologiyasının ifadəçiləri bir fakta diqqət yetirməlidirlər ki, Ermənistanın sayca daha çox olan azərbaycanlı əhalisinə belə analoji muxtariyyət statusu verilməsindən imtina edilmişdir. Məqalə yazmazdan əvvəl Mirumyan faktları və adi ziddiyyətləri təhlil etmək qabiliyyətinə dair özünün məntiqi qayğısına qalsaydı, yaxşı olardı. Çox güman ki, özünü kinorejissor, bəzən jurnalist kimi qələmə verən Mirumyan yalnız öz mülahizələrinin bir-birinə uyğun gəlmədiyini izah edə bilər. Məsələn, o yazır ki, Stalin "1920-ci ildə... Qarabağı Azərbaycana hədiyyə etmişdir". Adı çəkilən məqalədə bir neçə abzas əvvəldə isə o, sübut etməyə çalışır ki, 1923-cü ildə Dağlıq Qarabağı "zor gücünə Azərbaycanın tərkibinə salmışlar". Necə olur ki, 1920-ci ildə Qarabağı Azərbaycana hədiyyə edirlər, 1923-cü ildə isə həmin hədiyyəni onun sahibinə təqdim edirlər? Bütün erməni mənbələrində isə iddia edilir ki, həmin torpaqlar Azərbaycana 1921-ci ildə verilmişdir.

ZAQFEDERASİYA VƏ SONRAKI DÖVRDƏ AZƏRBAYCAN TORPAQLARININ ERMƏNİSTANA VERİLMƏSİ

1936-cı il martın 12-dən dekabrın 5-dək Azərbaycan, Ermənistan və Gürcüstan Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının tərkibinə daxil olmuşdur. Azərbaycan bu federasiyaya daxil olana qədər Yeni – Bəyazid qəzasının Basarkeçər rayonu və Şərur-Dərələyəz qəzasının üçdə iki hissəsi artıq Ermənistana verilmişdi. Azərbaycan Zaqfederasiyaya daxil edildikdən sonra Qazax qəzasının xeyli hissəsi, Naxçıvan muxtariyyətinin Cəbrayıl qəzasının bir çox kəndləri Ermənistanın tərkibinə daxil edildi. Nəticədə Ermənistanın ərazisi əsasən Azərbaycan torpaqları hesabına 8000-10000 kv.km-dən 29800 kv.km-ə qədər çoxaldı. Maraqlıdır, Mirumyan bu "milad hədiyyələri" barədə nə deyəcəkdir? Həm də Azərbaycan torpaqlarının Ermənistana verilməsi tarixi bununla bitmir. Bu proses demoqrafik tarazlığın ermənilərin xeyrinə dəyişilməsi müstəvisində davam etdirilir.

Stalinin başçılıq etdiyi sovet rəhbərliyi xarici ölkələrdə yaşayan ermənilərin Ermənistana "qayıtmalarını" hər vəchlə təşviq edirdi. Erməni mənbələrinin məlumatına görə, 1921-1936-cı illər arasında Ermənistana 42000-dən çox erməni gəlmişdir. Ermənistan əhalisinin demoqrafik tərkibinin dəyişdirilməsinin növbəti mərhələsi Stalinin 1945-ci ilin noyabrında imzaladığı xarici ölkələrdə yaşayan ermənilərin miqrasiyası barədə sərəncam oldu. Həmin sərəncama əsasən 1946-cı ildə Ermənistana 50000-dən çox, 1947-ci ildə 35400, 1948-ci ildə isə 10000-ə yaxın erməni gəlmişdir. Azərbaycan SSR-in Mil-Muğan düzünün pambıqçılıq rayonlarını işçi qüvvəsi ilə təmin etmək bəhanəsi ilə və xarici ölkələrdən gələn ermənilər yerləşdirmək məqsədilə SSRİ Nazirlər Soveti 1947-ci il 23 dekabr tarixli "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" və 1948-ci il 10 mart tarixli "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi tədbirləri haqqında" iki qərar qəbul etdi. Həmin qərarlara əsasən, 1948-ci və 1953-cü illər arasında 150000-dən çox azərbaycanlı indiki Ermənistanın ərazisindəki tarixi vətənindən Azərbaycan SSR-in o zaman susuzluqdan yanan Muğan-Mil düzünə köçürülmüşdür. 1961-ci ilin ortalarınadək Ermənistana 200000 erməni, 1962-ci ildən 1973-cü ilədək isə daha bir neçə on min mühacir gəlmişdir.

ERMƏNİSTAN – AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ

Ermənistanda ötən əsrin 80-ci illərinin axırlarına qədər qalmış 250000 azərbaycanlının taleyi isə ermənilərin Dağlıq Qarabağa yeni ərazi iddiaları başladıqdan sonra birdəfəlik həll olunmuşdur. Qısa müddətdə onların hamısı zor gücünə doğma yurdlarından qovulmuş və bununla azərbaycanlıların Ermənistanda mövcudluğuna məqsədyönlü şəkildə xitam verilməsi siyasətinin həyata keçirilməsi yekunlaşmışdır. Kütləvi qovulma zorakılıq hərəkətləri ilə müşayiət olunmuşdur. 1988-ci ilin təkcə üç günündə - noyabrın 27-dən 29-dək Ermənistan SSR-in Quqark, Spitak və Stepanavan şəhərlərində 33 azərbaycanlı qətlə yetirilmişdir. Ümumilikdə, 1987-1989-cu illərdə Ermənistanda aparılan etnik təmizləmə zamanı 216 azərbaycanlı öldürülmüşdür. Qətlə yetirilənlər arasında 5 körpə və müxtəlif yaşlı 18 uşaq vardır. Azərbaycanlıların yaşayış məntəqələrinə bütün hücumlar Ermənistanın

rəsmi hakimiyyət orqanlarının razılığı ilə edilmiş və bu hücumlara rayonların rəhbərləri, məsul işçiləri, yerli hüquq mühafizə orqanlarının əməkdaşları başçılıq etmişlər.

Əlbəttə, təcavüzkar millətçiliyin və siyasi ekstremizmin qurbanlarına çevrilən azərbaycanlıların ermənilər tərəfindən incidilməsi, zorakılıq hərəkətlərinə məruz qalması Mirumyanın heç vecinə deyil. Lakin ictimaiyyətin mühakiməsinə "həqiqəti" təhrif olunmuş şəkildə çatdıran erməni xalqının maraqlarının carçısı Mirumyan, hətta nifrətdən boğulsa belə bilməli idi ki, saxtakarlıq gec-tez aşkar ediləcək və onun müəllifləri biabırcasına ifşa olunacaqlar. Azərbaycanı tərk etmiş ermənilərin taleyinə yanan Mirumyan yazır ki, "onlar bütün dünyanı evsiz-eşiksiz dolaşırlar". Bununla da Mirumyan özünün irqçi mahiyyətini əyani şəkildə nümayiş etdirir. Yoxsa o, Ermənistandan, Dağlıq Qarabağdan və ətrafdakı 7 rayondan qovulmuş yüz minlərlə azərbaycanlını, erməni ölüm maşını tərəfindən əzablara düçar olmuş on minlərlə insanı, başqa etiqad və etnik mənşəyinə görə təqib olunanları xatırlayardı.

Mirumyan "soyqırımı" sözünü işlətdiyinə görə qurultayın tribunasından Mixail Qorbaçov tərəfindən qovulmuş "dünya şöhrətli alim" S.Ambartsumyana istinad edir. Ambartsumyanla Qorbaçov arasında SSRİ Ali Soveti Rəyasət Heyətinin 1988-ci il iyulun 18-də keçirilmiş iclasındakı dialoq maraqlıdır. Qorbaçov Ambartsumyandan soruşdu ki, əsrin əvvəllərində İrəvanda azərbaycanlı əhalinin sayı nə qədər idi? Özünü qafil itirən "dünya şöhrətli alim"in əvəzinə Qorbaçov özü cavab verdi ki, "əsrin əvvəllərində İrəvanda 43 faiz azərbaycanlı yaşayırdı". Qorbaçov elə o anda hələ özünə gəlməyən Ambartsumyandan soruşdu ki, bəs indi Ermənistan paytaxtında azərbaycanlılar neçə faiz təşkil edir? Kommunist dövrü üçün adi olmayan və Sov.İKP MK-nın Baş Katibi tərəfindən verilən sualla divara dirənmiş erməni akademik həmin an danışıq qabiliyyətini itirmiş və özünün şəxsi köməksizliyindən utanaraq, güclə bu sözləri demişdi: "Hazırda çox az. Yəqin, bir faiz". Bu zaman heç bir izahat verilmədi ki, yerdə qalan "faizlər" hara yox oldu? Bəlkə "kinorejissor" Mirumyan bunu bilir? Axı o, "jurnalist" tədqiqatı aparmağı xoşlayır.

Mirumyan və ona bənzər saxtakarlar özlərini eşitməməzliyə vursalar da, Ermənistanda 216 azərbaycanlının qətlə yetirilməsi, bir gecədə 613 azərbaycanlının öldürülməsi ilə Xocalıda törədilmiş kütləvi qırğın, Ermənistan ərazisində və işğal edilmiş Azərbaycan torpaqlarında etnik təmizləmə aparılması və bir çox digər ağır cinayətlər erməni xalqı nümayəndələrinin işidir. Bəli, Mirumyanın ifadə etdiyi kimi, "çoxəsrlik mədəniyyətə malik" ermənilər əfsanə sayılan "Böyük Ermənistan" naminə insanları diri-diri yandırır, onlara işgəncə verir, başlarını kəsir, günahsız adamları asır, hamilə qadınların qarınlarını yırtır, uşaqlara qarşı zorakılıq hərəkətləri törədirlər.

Özünün bir çox həmvətənləri kimi Mirumyan da Sumqayıtda baş vermiş hadisələrə "qırğın" damğası vurur. Doğrudan da, 1988-ci il fevralın 28-də Sumqayıt şəhərində 26 erməni və azərbaycanlının ölümü ilə nəticələnmiş etnik iğtişaşlar törədilmişdir. Lakin Mirumyan və onun kimi "kinorejissorlar" və "jurnalistlər" bir qayda olaraq, həmin dövrün hadisələrinin əsl səbəblərini aşkar edən bəzi mühüm detalları xatırlamağı "yaddan çıxarırlar". Belə ki, Sumqayıtda faciəyə bir neçə gün qalmış, məhz 1988-ci il fevralın 22-də Xankəndi-Ağdam yolunda, Əskəran yaşayış məntəqəsi yaxınlığında erməni döyüşçüləri tərəfindən Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına dair qeyri-qanuni qərar qəbul edilməsinə təbii etirazlarını bildirən azərbaycanlılar güllələbaran edilmişdir. Nəticədə iki azərbaycanlı gənc həlak olmuş, münaqişənin ilk qurbanlarına çevrilmişdir. Sumqayıt hadisələrinə qədər Xankəndidə azərbaycanlılara məxsus evlər yandırılmış, onlara hücum edilmiş, Ermənistanda azərbaycanlı əhaliyə qarşı zorakılıq törədilmiş, bu da qaçqın və məcburi köçkünlər axını yaratmış, onların bir çoxu Sumqayıta üz tutmuşdu. Təkzibolunmaz faktlar altında belə mirumyanlar inadla etiraf etmək istəmirlər ki, Sumqayıtda törədilmiş iğtişaşlar erməni millətçi dairələrinin fəal iştirakı ilə planlaşdırılmış təxribat idi. Məqsəd azərbaycanlılara qarşı geniş kampaniya aparılması üçün əlverişli zəmin yaratmaq, SSRİ-də və xarici ölkələrdə ictimai rəyi öz maraqlarına uyğun istiqamətləndirmək idi. Məlumdur ki, məsələn, Sumqayıt hadisələrinin əsas təhrikedici şəxslərindən biri, milliyyətcə erməni olan Sumqayıt şəhər sakini Eduard Qriqoryan hadisələr gedişində 5 ermənini qətlə yetirmiş və bilavasitə erməni mənzillərinin talan olunmasında iştirak etmişdir. Lakin Eduard Qriqoryan onu istiqamətləndirən, ona rəhbərlik edənlərin niyyətlərinin əksinə olaraq cinayət yerindən qaçıb gizlənə bilməmişdir. Zərərçəkmişlərin, əsasən ermənilərin ifadələrinə əsasən məhkəmə tərəfindən müəyyən edilmişdir ki, Qriqoryan kütləvi iğtişaşların təşkilatçılarından biri olmuşdur. İstintaq materiallarında o da bildirilir ki, talançılara digər ermənilər də "bələdçilik" etmişlər. Bundan əlavə, bir fakt maraq doğurur ki, Azərbaycanda yaşamış ermənilərin "Qarabağ" milli komitəsinin fəalları Sumqayıt hadisələrindən iki ay əvvəldən kütləvi şəkildə şəhəri tərk etməyə, pullarını əmanət kassalarındakı hesablarından çıxarmağa,

əmlaklarını satmağa başlamışdılar. Ermənistanın indiki prezidenti S.Sarkisyan hələ baş nazir olarkən 2005-ci il martın axırlarında keçirilmiş Dağlıq Qarabağ problemi üzrə parlament dinləmələrində Sumqayıt şəhərində iğtişaşlarda və sonralar Azərbaycanın digər şəhərlərində baş vermiş hadisələrdə üçüncü qüvvələrin marağı olduğunu təsdiq edərək bildirmişdir ki, bütün bu hadisələrin arxasında Sov.İKP MK dururdu. SSRİ DTK-nın keçmiş sədri V.Kryuçkov 2007-ci ilin noyabrında vəfat etdikdən sonra Britaniyanın KİV-ləri faktiki olaraq bu mülahizələri təsdiq etmişlər. Belə ki, "The Times" qəzetinin onlayn versiyası 2007-ci il 30 noyabr tarixli məqaləsində xəbər vermişdir ki, məhz DTK Bakı və Sumqayıt da daxil olmaqla, Sovet İttifaqının bütün iri şəhərlərində təxribatların təşkilatçısı olmuşdur. Bütün bu hallarda onu demək vacibdir ki, Sumqayıtda törədilmiş cinayət faktları üzrə 66 nəfər Azərbaycan Ali Məhkəməsi tərəfindən məhkum edilmiş, bir çox yüksək vəzifəli məmurlar vəzifələrindən azad olunmuşlar. Lakin Ermənistanda 216 azərbaycanlının vəhşicəsinə qətlinə görə heç kim məsuliyyətə cəlb edilməmişdir. Əgər erməni hərbçilərinin Xocalıda və Azərbaycanın digər işğal olunmuş ərazilərində törətdikləri cinayətlərə Ermənistanın ali siyasi rəhbərliyi tərəfindən bəraət verilirsə, bu barədə danışmağa dəyərmi?

BEYNƏLXALQ TƏŞKİLATLAR ERMƏNİSTANIN TƏCAVÜZÜ HAQQINDA

Mirumyan daha bir məlum tezisi səsləndirmişdir. Həmin tezisdə bildirilir ki, "Ermənistan Azərbaycanla müharibə etməmişdir". Onun inamına görə, "Qarabağ döyüşmüşdür". Təcrübədə belə hallar çoxdur ki, işğalçı digər dövlətin ərazisinin həmin torpaqlarda "kiçik müstəqil oyuncaq rejimlər" yaratmaq məqsədilə zorakılıqla zəbt olunmasında öz rolunu pərdələməyə çalışır. Ermənistan bu halda istisna sayıla bilməz. Əldə olunan çoxlu faktlar Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hərbi əməliyyatlarda birbaşa iştirak etdiyini və həmin hərbi qüvvələrin işğal olunmuş ərazilərdə yerləşdirildiyini sübut edir. Təəssüf ki, qəzet məqaləsinin ölçüsü bütün maddi dəlillərin orada yerləşdirilməsinə imkan vermir. Lakin, gəlin müstəqil mənbələrin bununla əlaqədar bəzi sübutlarına müraciət edək.

Avropa Şurası Parlament Assambleyasının məruzəçisi D.Atkinson demişdir ki, "Dağlıq Qarabağ regionu uğrunda hərbi döyüşlərdə yerli ermənilərdən başqa, Ermənistan ermənіləri də iştirak etmişlər. Bu gün Ermənistan əsgərləri Dağlıq Qarabağ regionunda və ətraf rayonlarda yerləşdirilmişdir. Regionda olan insanlar ciblərində Ermənistan vəsiqəsi gəzdirirlər, Ermənistan hökuməti isə bu zonaya külli miqdarda büdcə vəsaiti köçürür".

Böhranların Aradan Qaldırılması üzrə Beynəlxalq Qrupun (Kraysis Qrup) gəldiyi nəticələrə görə, "Dağlıq Qarabağın yaxşı təlim keçmiş və təchiz edilmiş müdafiə ordusu, ilk növbədə, çox hissəsi Ermənistan tərəfindən təchiz edilən quru qoşunlarıdır". Bu qeyri-hökumət təşkilatının qiymətləndirdiyinə görə, işğal olunmuş Azərbaycan ərazilərində Ermənistanın hərbi mövcudluğunu həmin ölkənin 10 min vətəndaşı təmin edir. Bir məlumatı da nəzərə çatdırmaq vacibdir ki, Ermənistanın bir çox çağırışçıları və müqavilə üzrə əsgərləri işğal olunmuş ərazilərə Ermənistan tərəfinin bildirdiyi kimi könüllülük əsasında deyil, müddətli hərbi xidmət əsasında məcburi şəkildə göndərilir. Kraysis Qrup hesab edir ki, "Ermənistan və Dağlıq Qarabağ silahlı qüvvələri arasında yüksək dərəcədə inteqrasiya mövcuddur ("Dağlıq Qarabağ: hadisə yerindən münaqişəyə baxış". Məruzə № 166 Avropa, 14 sentyabr 2005-ci il).

Ermənistanda 1998-ci ildə keçirilmiş prezident seçkilərinin nəticələri üzrə ATƏT-in Demokratik İnstitutlar və İnsan Hüquqlarına dair Bürosunun yekun məruzəsində "belə bir fakta görə son dərəcə narahatlıq ifadə olunmuşdur ki, səsvermə üçün nəzərdə tutulmuş səyyar qutulardan biri Ermənistan Respublikasının dövlət sərhədindən keçirilmiş, Kəlbəcər rayonunda (Azərbaycan) yerləşdirilmiş erməni əsgərlərinin səsvermədə iştirakı təmin olunmuşdur" (ATƏT DİİHB-nin 1998-ci il 9 aprel tarixli yekun məruzəsi).

Xyuman Rayts Votç 1994-cü ildə Helsinkidə etdiyi "Dağlıq Qarabağda münaqişənin yeddi ili" məruzəsində birmənalı şəkildə belə nəticəyə gəlir ki, "hüquqi baxımdan Ermənistan silahlı qüvvələrinin Azərbaycanda mövcudluğu Ermənistanı münaqişənin tərəfi edir, bu isə Ermənistan və Azərbaycan hökumətləri arasında beynəlxalq hərbi münaqişə hesab edilir". Avropa Şurası Parlament Assambleyasının 2005-ci il yanvarın 25-də qəbul etdiyi 1416 nömrəli Qətnamədə Ermənistanın beynəlxalq – hüquqi məsuliyyət daşıdığı diqqətə çatdırılmış və bildirilmişdir ki, "xarici ərazilərin üzv dövlət tərəfindən işğal olunması həmin dövlətin Avropa Şurasının üzvü kimi öhdəliklərini kobud surətdə pozması deməkdir..." Yəqin, Mirumyanın yalnız "kinorejissor" təxəyyülü bunu izah edə bilər ki, necə olur, Ermənistan müharibə etmir, lakin onun hərbi qüvvələri Azərbaycana qarşı hərbi əməliyyatlarda bilavasitə iştirak edir, Azərbaycanın işğal olunmuş ərazilərində yerləşir, burada düşərgə salır və hətta Ermənistan prezidenti seçkilərində səsvermədə iştirak

edirlər. Doğrudanmı, ermənilərə qarşı sui-qəsddə "bütün məzlumların dostları", "pişik sevənlər", "siyasi fırıldaqçılar", "kommunizm quruculuğu podratçıları", "ayı ovçuları", "əlaltı olanlar" və "Nobel mükafatı laureatları" ilə yanaşı, Avropa Şurası Parlament Assambleyası, Böhranların Qarşısının Alınması üzrə Beynəlxalq qrup, ATƏT-in Demokratik İnstitutlar və İnsan Hüquqları üzrə Bürosu, Xyuman Rayts Votç da iştirak edirlər? Mirumyan belə bir faktı necə izah edə bilər ki, hələ 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti "Ermənistan SSR və Dağlıq Qarabağın birləşməsi haqqında" qərar qəbul etmişdir. Buna çətin ki, izahat ala bilək. Mirumyan kimilər ətrafa yalnız şəxsi dünyagörüşünə zərər prizmasından baxırlar.

Mirumyan azərbaycanlıları "rəzil", "başdan-ayağa qana bulaşmış cəllad", "böhtan yayan", "insanlıqdan uzaq" adlandırır. İslam dininin təhqir edilməsi isə məlum "karikatura" biabırçılığının daha bir təzahürüdür, dini nifrətin qızışdırılması, etnik və irqi dözümsüzlüyün yayılması məqsədini güdür.

AZƏRBAYCANLILARIN MƏDƏNİ İRSİNİN ERMƏNİLƏR TƏRƏFİNDƏN ÖZÜNÜNKÜLƏŞDİRİLMƏSİ

Eyni vaxtda, maraqlıdır ki, ermənilərin öz qonşularına münasibətdə bütün bu sayıqlamaları onlara vicdan əzabı çəkmədən azərbaycanlıların mədəni irsini özününküləşdirməyə mane olmur. Ermənilərin digər mədəniyyəti abırsızlıqla "özününküləşdirməsinin" analoqu yoxdur. Bu mövzuda çox deyilmiş və yazılmışdır. Həmin mövzuda bu yaxınlara aid olan rastlaşdığım materiallardan biri Vadim Svirin cari il martın 26-da "Moskovskaya Pravda" qəzetində dərc olunmuş "Sarı gəlin" mahnısı Ermənistanın himni olacaqmı?" məqaləsini misal gətirmək olar. Rusiya jurnalisti müxtəlif mənbələri araşdırarkən təəccübünü gizlədə bilmir, ermənilərin Azərbaycan musiqisini "mənimsədiyinə" dair çoxlu fakt aşkar edir. O yazır: "Mahnılar, romanslar, rəqs melodiyaları, operettalar və operalar oğurlanır. Buna hələ ötən əsrin əvvəllərində başlanmışdır. Bu mənada Azərbaycan musiqisinin klassiki bəstəkar Üzeyir Hacıbəylinin xüsusilə "bəxti gətirmişdir". Onun məşhur "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyaları, "Ər və arvad" əsəri mənimsənilərək ermənilərin əsərləri kimi qələmə verilmişdir. Üzeyir Hacıbəylinin 1913-cü ildə yazdığı "Arşın mal alan" əsəri ilə bağlı əhvalat buna nümunədir. Qeyd edək ki, "Arşın mal alan" musiqili komediyasının ilk kino ekranlaşdırılması 1917-ci ildə Bakıdakı "Film" Səhmdar Cəmiyyəti tərəfindən həyata keçirilmişdir. Bu barədə çox yaxşı məlumatı olan, Tiflisdə yaşayan erməni rejissor Ruben Mamulyan ötən əsrin 30-cu illərinin axırlarında Hollivudda "Arşın mal alan" adlı "klassik erməni" musiqili komediyasını ekranlaşdırır.

Vadim Svirin daha sonra məqaləsində ötən ilin sentyabr ayında baş vermiş daha bir qalmaqal haqqında məlumat verir. Qalmaqala səbəb Azərbaycan bəstəkarı Tofiq Quluyevin "Sənə də qalmaz" melodiyasından fiqurlu konkisürənlər duetinin nümunəvi çıxışlarında "erməni rəqsi" kimi istifadə olunmasıdır. Bu yaxınlarda Nyu-Yorkun mərkəzindəki musiqi mağazalarından birində Civan Qasparyanın "Ermənistanda hazır-lanmışdır" adlı albomuna rast gəldim. Alboma daxil edilmiş kompozisiyaları diqqətlə nəzərdən keçirərkən aşkar etdim ki, Azərbaycanın məşhur "Sarı gəlin" mahnısı albomda "Sarı arçıq" kimi verilmişdir. Doğrudan da, belə plagiat nümunələri çoxdur. Bunlar musiqiyə, incəsənət əsərlərinə və hətta mətbəxə də aiddir. Nə demək olar? Görünür, özünün "çoxəsrlik" tarixinə malikolma inamı nadir və təkrarolunmaz mədəniyyət üçün kifayət deyildir.

ERMƏNİSTANIN İRQÇI KONSEPSİYASI

Bütün yuxarıda izah olunanlar rəsmi İrəvanın "ermənilərin və azərbaycanlıların birgə yaşaya bilməyəcəkləri" barədə konsepsiyasında əksini tapmışdır. İlk dəfə bu konsepsiya 2003-cü ilin yanvar ayında Rusiya XİN-in Diplomatiya Akademiyasında Ermənistanın keçmiş prezidenti R.Koçaryan tərəfindən rəsmi səslənmişdir. Beynəlxalq ictimaiyyətin haqlı etirazına baxmayaraq, Ermənistan dövləti başçısının sözləri etibarsız hesab edilməmişdir. Ermənistanın bu açıq irqçi konsepsiyası yaşayır və dövlət siyasətində inkişaf etdirilir, habelə Mirumyan kimi təxribatçıların və yalançıların nifrətlə yoğrulmuş əsərləri vasitəsilə insanların şüuruna yeridilir. Mən bu personajın familiyası qarşısındakı "kinorejissor" sözünü şüurlu surətdə dırnaq arasına almışam. Çünki incəsənət xadimlərini həmişə xeyirxahlıq və sülhün carçıları hesab etmişəm. Mirumyanın yazdığı bu həcvdən sonra onu mədəniyyətə aid etmək çox çətin ki, mümkün olsun.

"YENİ MERİDİAN" (Nyu-York)
№ 810, 20-27 MAY 2009-CU İL

PROZA

ƏZİZ NESİN

«Ağcaqanadlar olmasa...»

On yaşındaykən belə deyirdi:

– Ah, bir çantam olsa... Ah, mənim də o biri uşaqlar kimi kitablarım, oyuncaqlarım olsa!.. Onda görərlər, necə çalışıram. Heç bir şeyim yox. Belə necə çalışım mən?..

On üç yaşına gəlincə, o biri uşaqlar kimi kitabları, dəftərləri, çantası, oyuncaqları oldu. Amma heç cür çalışa bilmirdi.

– Dost-tanışlarım kimi paltarlarım yox ki... -deyirdi. Anam, atam, qardaşlarım – hamımız bir otaqda yaşayırıq. Belə dar yerdə çalışmaq olarmı? Ah, bir otağım olsa, bir masam, bir dolabım. Bax, onda necə çalışılır, görsünlər...

On səkkiz yaşında öz otağı da oldu.

– Mənim yaşımda bir insan həftədə on lirə belə cib xərcliyi almazsa, necə çalışa bilər? Kitablar almalıyam, şəkillər almalıyam... Ah, ah... onda bilərəm necə çalışacağımı...

İstədikləri iyirmi yaşındaykən oldu.

– Ah, bu məktəbi bitirsəydim... Həyat başqa, məktəb başqa... Fakültəni bitirincə elə çalışacağam, elə çalışacağam, görərlər... Elə bir əsər yazacağam ki... Ah, ah, bu fakültə bir bitsə...

İyirmi dörd yaşında fakültəni bitirdiyi zaman belə söyləyirdi:

- Heç cür istədiyim kimi çalışa bilmirəm. Ağlım, fikrim həmişə əsgərlikdədir... Ah, bu əsgərliyi bir bitirsəm, gecə-gündüz durmadan çalışacağam... Çalışmadan əsər ortaya çıxmaz. Bir əsər yazacağam, hər kəs məndən danışacaq. Ah, bu əsgərlik...

İyirmi altı yaşında əsgərliyini bitirmişdi:

- Çalışa bilmirəm ki... Heç cür istədiyim kimi çalışa bilmirəm. Əsərimi yaza bilmirəm. Bu vəziyyətdə necə yazmaq olar? Hər gün çörək pulu arxasınca qaçıram. İnsanın yaxşı bir işi, bəlli bir gəliri olmasa nə cür çalışa bilər? Ah, ah... Bir yaxşı iş tapsam, əsərimi yazmaq üçün hər gecə sabaha qədər çalışacağam.

İyirmi səkkiz yaşında iş-güc sahibi olmuşdu.

- Çalışa bilmirəm, vəssalam! - deyirdi, necə çalışım belə? İnsanın iki otaqlı evi olmalıdır. Radiosu olmalıdır. Açarsan radionu, musiqidən ilham alarsan... Bax o zaman durmadan çalış!.. Ah, ah!.. Bir radio olsa...

İyirmi doqquz yaşında iki otaqlı bir mənzil kirayəyə götürdü. Bir də radio aldı. Amma yenə istədiyi kimi çalışa bilmir, illərdən bəri düşündüyü əsərini ortaya çıxara bilmirdi.

- Ah, ah!.. deyirdi, bu yalnızlıq var ha, bu yalnızlıq... Sanki bu sinəmin içi sonsuz, dibsiz mağaralar kimi bomboşdur... İnsan bu yalnızlıq içində neçə çalışıb da, əsər yaza bilər? Bir insanı çalışmağa həvəsləndirən, şövqləndirən, zorlayan bir qüvvə olmalıdır. Kimin üçün çalışacağam? Kimdən ruhlanıb da əsər yazacağam? Ah, ah... Ey eşq, haradasan?..

Otuz yaşında aşiq oldu. Həm sevir, həm sevilirdi. Amma illərdir düşündüyü o böyük əsərini heç cür yaza bilmirdi.

- Eşq gözəl şeydir, deyirdi, gözəl olmasına gözəldir. Amma evlənmədən çalışmaq olarmı? Bir evlənsəm, o zaman həyatım qaydaya düşər, istədiyim kimi çalışaram. Evlənmək də asan deyil. Ah, ah, bir evlənsəm... Bir dəqiqəmi belə boş keçirmərəm, dayanmadan çalışaram.

Otuz iki yaşında evləndi. Xoşbəxt idi, amma əsərini heç cür yaza bilmirdi. Çünki haqlı səbəbi vardı.

- Dolanmaq dərdi mindi çiyinlərimə. Çörək pulu üçün qaçmaqdan öz istədiyim kimi çalışmağa vaxtım yoxdur ki... Əsər yazmaq üçün, insanın bütün vaxtını o əsərə verib, çalışması gərəkdir. O da bu pulla olmaz.

Otuz altı yaşında qazancı artmışdı. Artmışdı, amma bir özünü dinləyək:

- İki otaqlı bir mənzil... Otaqlar da kiçikdir. Uşaq-muşaq səs-küyü də bir yandan... İnsan bu səs-küyün içərisində əsər yaza bilərmi? Ah, ah... Belə dörd-beş odalı bir evə çıxsam, elə çalışacağam, elə çalışacağam...

Otuz səkkiz yaşında beş odalı bir evə köçdü. Heç cür əsərini yaza bilmirdi. Çalışa bilmirsə, təqsir onun deyil ki...

- Şəhər içindəki bir evdə insan necə çalışa bilər? Bu gurultu içində gəl bir çalış da... Əsərimi yaza bilmək üçün səssizliyə, özümün istirahətimə bir ehtiyac var. Bura toz, torpaq, gurultu... Olmaz burada. Ah, ah... Belə sakit, səssiz bir evə köçsəm, elə çalışaram ki... İçimdə çalışmağa qarşı dərin bir susuzluq var.

Qırx yaşındaykən, tam axtardığı kimi, səssiz bir yerdə gözəl mənzərəli, geniş bir evə köçmüşdü. İstədiyi kimi çalışa bilirdimi? Xeyr. Çünki:

- Ah, ah!.. deyirdi, insanın evində gözəl əşyalar olmazsa, divarlarda dəyərli tablolar, böyük bir yazı masası olmazsa, zərif gözəllik əşyaları, əntiq əşyalar olmazsa, rahat oturacaqlar, yumşaq xalılar olmazsa, necə çalışa bilər? Gözəl əsər ortaya çıxarmaq üçün insanın gözü zövqlü şeylər görməlidir. Klassik musiqi valları olmalıdır. Bir yandan gözün, bir yandan qulağın zövq alarkən, sən heç dayanmadan çalışacaqsan. Ah, ah... Bu istədiklərim bir gün olacaqmı, ya Rəbbim... Elə çalışaram ki...

Qırx iki yaşında tam istədiyi kimi rahat, gözəl, dəyərli əşyalara da qovuşmuşdu. Əgər yenə də heç cür əsərini yaza bilmirsə, o nə etsin?

- Ah, ah!.. deyirdi, mənim halımı bir bilsəydiniz. Pul dərdi, dolanmaq sıxıntısı çəkmirəm. Arvadım məni xoşbəxt edir. Uşaqlarım da yaxşıdırlar... Evim genişdir, rahatdır, mənzərəsi də gözəldir. Çox dəyərli, bahalı əşyalarım da var... Bol-bol vaxtım da var. Amma bu ağcaqanadlar, ağcaqanadlar... Heç cür rahatlıq vermirlər ki, oturub çalışam. Mənim halım necə olacaq? Nədir bu ağcaqanadlardan çəkdiyim? Ah, ah... Bu ağcaqanadlar olmasa, mən bilirəm necə çalışacağımı... Amma nə edək ki, ağcaqanadlar qoymur. Heç cür əsərimi yaza bilmirəm. Gündüz ağcaqanadların əlindən yata bilmirəm ki, gecələri çalışım... Pəncərələri qapatsam isti olur. Pəncərələrə pərdə çəksəm, çirkin olur. Qışdamı çalışım dediniz? Qışda ağcaqanad olmaz, deyilmi? Ah, ah... Ağcaqanadlar da olmasa mən nə edərdim, bilmirəm ki?...

İndi qırx iki yaşında olduğu üçün biz hələ də ondan ümidimizi üzməmişik. Əlbəttə, bir gün aradığı rahatlıqlara çıxacaq, nəfəs almadan çalışıb o böyük əsərini ortaya çıxaracaqdır.

Türkcədən çevirəni:
Xeyrəddin QOCA

HƏYAT LÖVHƏLƏRİ

"Qütb ulduzu"na doğru irəli!

O zamanlar Nabran hələ məşhurlaşmamışdı. Hətta elektrik enerjisi dizel-motorun köməkliyi ilə bir neçə saatlığa verilirdi. Gecə saat 11-12-dən gec olmayaraq işıqlar söndürülürdü. Elektrik avadanlıqları köhnə olduğundan qəzalar da tez-tez baş verirdi.

Mənim çoxlarının xoşuna gəlməyən bir şakərim vardı – dənizə çimməyə çox gec gedərdim. Çimərlikdə nəinki çimənlər, heç sahildə oturub təmiz hava qəbul edənlər də olmazdı.

Bu dəfə də nə dənizdə, nə də sahildə heç kim yox idi.

Mən üzməyi yaxşı bacardığımdan sahildən xeyli uzaqlara üzərdim (heç də təqdirə layiq hərəkət deyil). Artıq 15-20 dəqiqə olardı ki, dənizə baş vurmuşdum. 10-15 dəqiqə də çimib çıxmaq fikrim vardı. Elə bu məqamda qəsəbənin bütün işıqları qəflətən söndü. Ətrafa qorxunc bir zülmət çökdü. Hansı tərəfə baxdımsa, sahili nişan verən bir oriyentir tapa bilmədim. Doğrusu, məni vahimə bürüdü. Lakin xoşbəxtlikdən özümü tez ələ ala bildim. Dərk elədim ki, bu məqamda vahimə ölümə bərabərdir. Nə isə bir çıxış yolu fikirləşmək lazım idi. Sahilin istiqamətini dəqiq bilmədən üzməyin mənası yox idi – əks istiqamətə üzə bilərdim. Bəs sahilin səmtini necə təyin etmək olar? İlk ağlıma gələn "Qütb ulduzu"nu tapmaq oldu. Orta məktəbdən bilirdim ki, "Qütb ulduzu" şimalı göstərir. Əgər şimal məlumdursa, əks tərəf – arxam cənub, sağım şərq, solum qərb olacaq. Onu da bilirdim ki, sahil dənizin qərbindədir. Lakin bu, ümumilikdə belədir. Reallıqda isə sahilin profili elə ola bilər ki, ən yaxın sahil qərbdə deyil, şimalda, hətta cənubda ola bilər. Odur ki, üzü qərbə üzmək çox da etibarlı olmaya da bilərdi.

Uzun müddət suyun üzündə qalmağı bacardığımdan müəyyən bir oriyentiri tapana qədər bu üsulu daha etibarlı saydım. Amma hər ehtimala qarşı "Qütb ulduzu"nu axtardım. Budur, böyük ayı bürcü, kiçik ayı bürcü və onun ən parlaq ulduzu – "Qütb ulduzu" – səyyahların, azıb-itənlərin xilaskarı. Mən bu fikirdə ikən işıqlar yandı. Sahil aydın göründü. Mən sahildən xeyli aralıda idim. Qəribə burası idi ki, ən yaxın sahil şimalda idi – "Qütb ulduzu"nun "altında". İndi lap işıqlar sönsəydi belə qorxusu yox idi, mənim artıq nişangahım vardı – "Qütb ulduzu". "Qütb ulduzu"na döğru irəli!" – komandasını verib üzməyə başladım. Bir neçə dəqiqədən sonra mən artıq sahildə idim.

Şastri

Azərbaycan Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinin müəllimlərindən biri xarici görünüşünə, boy-buxununa, yerişinə-duruşuna görə Hindistanın o zamankı prezidenti Şastriyə oxşadığından tələbələr ona "Şastri" adını qoymuşdular.

İmtahan sessiyasında "Şastri" müəllim tələbələrdən birini "kəsmişdi". Tələbə bir neçə dəfə cəhd eləsə də, kəsiri düzəldə bilməmişdi. Odur ki, kömək üçün Elmlər Akademiyasında institut direktoru işləyən dayısına müraciət etməli olmuşdu.

– Dayı, dördüncü kursa çatmışam, indiyə qədər imtahanlara görə səni narahat eləməmişəm. Bu dəfə qəliz bir müəllim əlinə düşmüşəm, bəlkə kömək eləyəsən.

– Kimdir müəllim?

– Adı Şastridir. Ehtimal nəzəriyyəsi.

– Şastri kimdir ə, mən universitetin bütün müəllimlərini tanıyıram. Şastri adında müəllim eşitməmişəm.

– Deməli, mən müəllimimi tanımıram?

– Azərbaycanlıdır?

– Bəli, xalis azərbaycanlıdır.

Direktor dekana zəng edir:

– Ələddin müəllim, salam. Mənim bacıoğlum sizdə oxuyur, imtahandan kəsilib. Mümkünsə, bir köməklik göstərin.

– Müəllimi kimdir?

– Şastri müəllim.

– Ola bilməz, bizdə Şastri adında müəllim yoxdur.

– Elə mən də onu dedim ki, universitetdə Şastri adında müəllim tanımıram. Amma bacıoğlum yanımdadır, deyir ki, müəllimimizin adı Şastridir.

– Kəsir hansı fənnəndir?

– Ehtimal nəzəriyyəsindən.

– Ay sizin məzəniz olsun, uşaqlar necə də düz tapıblar, heç gör müəllimlərin ağlına gəlib? Uşağı göndərin gəlsin yanıma, narahat olmayın, bir şey fikirləşərik.

Dekan:

– Ay oğul, adının Şastri olduğunu müəllim özü deyib sizə?

– Xeyr, müəllim. O, ilk dəfə auditoriyaya daxil olanda uşaqlardan kimsə "bu ki lap Şastrinin özüdür" demişdi. Elə o vaxtdan uşaqlar onu Şastri kimi tanıyırlar.

– Bilirsən Şastri kimdir?

– Xeyr.

– Şastri Hindistanın prezidentidir. Müəlliminizin adı isə Səməndərdir. Yadında qaldı? Get yanına, xahiş eləyərəm köməklik göstərər. Amma səndə də bir kəramət olsun.

"Sevgilim"

Kislovodskda istirahət edirdim. Hər gün şəhər parkı – "Xram vozduxa" və ya "Dolina roz" marşrutu ilə piyada gəzintiyə çıxırdım. Marşrutun başlanğıcı və sonu eyni olsa da, yolları müxtəlif idi. Yollar məxsusi seçilmişdi və bir neçə yerdə baxış meydançalarına çıxırdılar. Bu meydançalardan şəhərin, ətraf dağların, dərələrin, meşələrin əsrarəngiz mənzərəsi açılırdı. Mən bu füsunkar mənzərəyə baxmaqdan doymurdum.

Bu marşruta həkimlərin dilində terrenkur (dozalı piyada gəzinti) deyirdilər və sanatoriyada dincələnlər üçün müalicə proseduru idi. Hətta onların kurort kitabçalarında qeyd olunurdu.

Mənim üçün bu marşrutda maraqlı cəhət qət etdiyim məsafəni və dəniz səviyyəsindən hansı yüksəklikdə olduğumu bilməyim idi. Mənzil başına çatan vaxt nahar vaxtına düşəndə, "Xram vozduxa" restoranına təşrif buyurardım.

Bu dəfə də nahar vaxtı "Xram vozduxa" restoranına yetişdim. Xudmani bir yer seçib yenicə oturmuşdum ki, restorana yaraşıqlı, boy-buxunlu, görkəmindən yüksək vəzifəli şəxsə oxşayan bir nəfər daxil oldu. O, zala göz gəzdirdi. Zalda kifayət qədər boş stollar olsa da, o, mən tərəfə gəldi, salamlaşıb:

– Elli, olar sizin yanınızda oturum? Düzü, tək oturmaq istəmirəm, özü də ellim olan yerdə.

– Buyurun, əyləşin.

Tanışlıq üçün bir-birimizə mentalitetimizə uyğun suallar verdik. Məlum oldu ki, yeni tanışım – Adil Qafarov Tovuzdandır, Xalq Təsərrüfatı İnstitutunu fərqlənmə diplomu ilə bitirib, aspiranturada oxumaq tövsiyə olunsa da, özü istehsalatı seçib, Maliyyə nazirliyində idarə rəisi vəzifəsinə qədər yüksəlib. Mən də Azərbaycan Dövlət Universitetini bitirdiyimi, aspiranturada oxuduğumu, əslən qarabağlı olduğumu bildirdim.

Adil müəllim:

– Bilirsiniz, mən hər dəfə "qarabağlı" sözünü eşidəndə özümdən asılı olmayaraq, bir qarabağlı tanışım gəlir durur gözümün önündə – deyə, söhbətə başladı.

... Mən müfəttiş işləyirdim. Yoxlama aparmaq üçün məni Ağdama ezamiyyətə göndərmişdilər. Müfəttişin gəlişini bilməsələr yaxşıdır. Ona görə də, gəlişim haqqında heç kimə məlumat verməmişdim. Ağdama nahar vaxtı yetişdiyimdən restoranda nahar etmək istədim. Odur ki, müvəqqəti iş yerim olacaq "Maliyyə şöbəsi"nə yaxın restoranlardan birinə gəldim. Yenicə yer seçib oturmuşdum ki, çox yaraşıqlı, boy-buxunlu, nurlu bir nəfər başının dəstəsi ilə restorana daxil oldu. Onu görcək restoranın bütün işçiləri ayağa qalxdılar, çox mehribancasına qarşıladılar:

– Yusif qağa, xoş gəlmisiniz – deyib, yer göstərdilər.

Qonaqlar yenicə əyləşmişdilər ki, onlardan biri mənə yaxınlaşıb:

– Yusif qağa xahiş eləyir ki, bizimlə oturasınız.

Mən onun sözünü yerə sala bilməzdim. Məclis çox xoş keçirdi. Lakin mən getməli idim. Odur ki, "Yusif qağa"dan getmək üçün icazə istədim, onunla tanışlıqdan məmnun qaldığımı bildirdim, ev, iş telefon nömrələrimi verdim və təvəqqe elədim ki, yolu Bakıya düşəndə məni arasın. O da özünü təqdim etdi:

– Ağayev Yusif Musa oğlu, Qarabağda kimdən soruşsanız, yerimi deyərlər.

Birdən o, nə fikirləşdisə, restoran işçilərindən birini çağırıb ona nəsə tapşırdı. Heç bir dəqiqə keçmədi, restoranda musiqiçilər peyda oldular:

– Yusif qağa, qulluğunuzda hazırıq.

– Qonağımız (məni göstərdi) bizə şərəf gətirərək, bizimlə oturmağa razılıq verdi. Amma təəssüf ki, bizi tərk etməlidir. Odur ki, gərək onu elə təntənə ilə yola salaq ki, bu gün hamımız üçün unudulmaz olsun. Çıxarsınız restoranın balkonuna. Qonağımız gözdən itənə kimi çalarsınız. Nə çalacaqsınız, özünüz bilərsiniz. Ancaq ürəyə yatan musiqi olsun.

Mən ecazkar musiqi sədaları altında yeni tanışımı bir də qucaqlayıb ondan ayrıldım.

Mən həyatımda çox şeylər görmüşəm. Lakin məni bu qədər təsirləndirən heç nəyə rast gəlməmişəm. Bircə ona təəssüflənirəm ki, mən onu bir daha görə bilmədim. Sonralar öyrəndim ki, rəhmətə gedib. Allah ona rəhmət eləsin.

– Adil müəllim, haqqında danışdığınız adam mənim dayımdır.

– Nə danışırsınız? Təsadüfə bir bax! Vallah, "Yusif qağa"nın ruhu bizi görüşdürüb. Təəssüf ki, mənim putyovkamın vaxtı bu gün bitir və mən sabah Bakıya yola düşürəm. Sizdən xahiş edirəm, bax, bu mənim vizit kartım, mütləq məni tapın, Bakıda görüşək, inanın, "Yusif qağa"nın ruhu şad olar.

Mən Adil müəllimi tapacağıma söz verdim. O, taksi sifariş elətdirdi. Lakin mən piyada gedəcəyimi bildirəndə o, restoranda axşama hazırlaşan musiqiçilərə yaxınlaşdı və onlara nəsə dedi. Mən yeni tanışımla köhnə dostlar kimi qucaqlaşıb ayrıldım. Elə Adil müəllimdən yenicə ayrılıb yola çıxmışdım ki, o zamanlar bütün Sovet İttifaqında sevilə-sevilə oxunan "Sevgilim" mahnısının sədaları ətrafa yayıldı. Saksofonçu restoranın balkonuna çıxıb mənə musiqi salamı göndərirdi.

Xəlil MƏCIDOĞLU
E-mail: khalil_majid@mail.ru

Min bir dərdin dərmanı



ÇAY – AZƏRBAYCANIN SÜFRƏSİNDƏ, BAZARINDA, ŞÜURUNDA, HƏYATINDA...

Deyirlər, kofe çıxandan çay dəbdən düşüb. Amma artıq qərblilər yenidən bu qədim içkinin həqiqi dəyərini qiymətləndirib, ona qayıtmaq fikrindədirlər. Lent.az-ın bu mövzuda araşdırması zamanı əksər ekspertlər dedilər ki, çay kofeyə nisbətən daha xeyirlidir. Çayın tərkibində vitaminlər, minerallar, efir yağları və kofein var. Kofein alkoloidi 1 fincan çayda 30-60 mq. təşkil edirsə, bir fincan kofedə bu, 80-120 mq-dır. Bəs bu iki içkinin təsirindəki fərq nədədir?

Kofedə olan oyadıcı effekt dərhal təsir göstərir, amma müddəti az sürür, təzyiq 10-20 dəqiqədən sonra düşür. Amma çaydakı kofein orqanizm tərəfindən aramla həll olunur, çox qalır və onun oyadıcı təsiri daha uzun müddətli olur.

ARMUDU STƏKANDA...

Ölkəmizdə artıq formalaşmış çayxana mədəniyyəti mövcuddur. İnsanlar çaya qida və tibbi faydaları ilə yanaşı, həm də sosial amil kimi yanaşırlar. Bu nemət ictimai-sosial müzakirələrin, əyləncələrin, kütləvi istirahətin ən vacib elementi kimi özünə yer qazanıb. Maraqlı və ciddi nüanslardan biri də çayın Azərbaycanda məhz armudu stəkanda içilməsilə bağlıdır. Hazırda bu məsələdə o qədər də dərin mühafizəkarlıq görünmür, insanlar müxtəlif cür fincanlarda, büllur stəkanlarda çay içməyə daha çox meyl edirlər. Amma birmənalıdır ki, Azərbaycanda çay kultunun əsas və vacib elementi armudu stəkan olaraq qalır. Düzdür, çoxları belə xırdalıqlara fikir vermir, amma armudu stəkanın quruluşu və həcmi məhz çayın optimal hərarətdə və optimal həcmdə içilməsini təmin edir. Armudu quruluş çayın stəkanda

gec və termomübadilə baxımından mütənasib qaydada soyuması üçündür. Belə quruluşda çay səthdən başlayaraq, stəkanın dibinə qədər proporsional şəkildə artan qaydada soyuyur - stəkanın dibindəki kütlə daha isti saxlanır. Adi stəkanda isə süzüləndən bir neçə dəqiqə sonra mayenin bütün kütləsi eyni səviyyədə temperatur itirir, çay birdən-birə tamamilə soyuyur. Bundan başqa, armudu stəkanın bəlli həcmi təsadüfən seçilməyib. Bu, çayın orqanizmə effektiv və mütənasib porsiyalarla qəbul edilməsinə xidmət edən həcmdir. İri stəkanlarda çay içiləndə isə həddən artıq maye qəbulu şişkinlik və ağırlıq yaradır. Bu, həm də çayın tərkibindəki təzyiqi artıran maddələrin artıq qəbul edilməsi deməkdir ki, nəticədə də sağlamlığa ziyan dəyir.

ÜRƏYİMİZ YANANDA...

Tibb elmləri doktoru, professor Adil Qeybulla Lent.az-a çayın faydalı və zərərli tərəflərindən danışdı. O bildirdi ki, insanın istifadə etdiyi bitkilərin arasında çayın xüsusi yeri var və çay insanın orqanizminə tonuslandırıcı təsir göstərir. Çayın tərkibində olan bioloji aktiv maddələr, o cümlədən "tanin" adlanan maddə insan orqanizminə tonuslandırıcı təsir göstərir və bir növ analitik xüsusiyyətlərə malikdir. Odur ki, insanlar uzun müddət bədəndən yorğunluğu çıxaran, ümumi halsızlığı götürən bir vasitə kimi çaydan istifadə edirlər. Bəzi yerlərdə bu məqsədlə kofedən, bəzi yerlərdə isə digər bitkilərdən - jenşen, yaşıl çay və s. - dən istifadə olunur. Lakin professor hesab edir ki, çay bunların arasında ən geniş yayılmış və insan orqanizminə müsbət təsiri çox olan bitkidir. Amma həkim onu da deyir ki, çayın istifadə qaydalarına düzgün riayət olunmalıdır. Ümumiyyətlə, bu bitkilərdən bir qayda olaraq dəmləmələr, cövhərlər və ekstraktlar şəklində istifadə olunur. Yəni çay qaynanmış su ilə dəmlənir və dəmləmə şəklində istifadə olunur.

A.Qeybulla deyir ki, dəmlənmiş çay yarım saat ərzində içilməlidir. Bundan sonrakı halda çayın tərkibində olan "tanin" maddəsi parçalanır və çay öz bioloji aktivliyini itirir, onun əvvəlki effekti qalmır. Bu səbəbdən də uzun müddət dəmli qalmış çaydan istifadə etmək düzgün deyil. Çay müxtəlif üsullarla emal olunur və bu prosesdə ona qida əlavələri deyilən müxtəlif maddələr əlavə olunur. Qida əlavələri ayrılıqda qida kimi istifadə olunmur. Lakin bu maddələr çaya rəng, dad, struktur və s. verir. Çayın tərkibinə əlavə edilən bu qatqılar bioloji xassələrə malik olsa da, bədənə xüsusi zərərli təsir göstərmir. Bunlar müxtəlif ətirlədici maddələrdir. Məsələn, çaya daha çox "berqamot" adlanan ətirli maddə qatılır və bu, emal prosesində həyata keçirilir.

Professor bizimlə söhbətində qeyd etdi ki, hazırda istehsal olunan çayların arasında daha çox boyanmış çaylara rast gəlinir. Bu çaylar boya əlavələrindən istifadə olunmaqla boyanılır və bu cür çaylar hətta soyuq suda belə öz rəngini çıxarır. Təbii ki, soyuq suda rəngi çıxan çaylar əsl çaylar siyahısına daxil deyil. Əsl çay dəmlənəndə onun ətri hiss olunur və bir qayda olaraq, stəkanda iz buraxmır. Bu gün bütün dünyada çay istehsalında xeyli azalmalar var. Hətta çayın əsas istehsalçısı sayılan Seylon adasında olan plantasiyalarda və başqa ölkələrdə azalmalar müşahidə olunur.

ƏTİRLİSƏN-DADLISAN...

Müsahibimiz yaşıl çayın daha faydalı olduğunu deyir: "Çünki yaşıl çay bədəndə maddələr mübadiləsinin normal getməsini təmin edir, orqanizmin ömrünə və bioloji proseslərinə müsbət təsir göstərir. Bir fincan yaşıl çay beyin yarımkürələrini oyadır, damarları genişləndirir, yorğunluğu aradan qaldırır, başağrısını götürür. Yaşıl çay damarları genişləndirir, tonus azalır, təzyiq aşağı düşür. Ona görə də, yaşıl çayın hipotoniklər, yəni təzyiqi aşağı olanlar tərəfindən çoxlu içilməsi yolverilməzdir.. Onlar çayı içdikdən sonra 5-10 dəqiqə ərzində özlərini yaxşı hiss edə bilərlər. Lakin sonradan əksinə, təzyiq düşür və insan özünü əvvəlkindən də halsız hiss edir. Sadəcə, ümumi xeyrini nəzərə alıb, təzyiq normal olan vaxt 1 fincan içə bilərlər.

Professor deyir ki, yaşıl çay – hipertoniklər, təzyiqi yüksək olanlar üçün əsl dərmandır. Mədə xorası, qastrit, onikibarmaq bağırsağın xəstəliyi olan insanlar, 10 yaşına kimi uşaqlar yaşıl çaydan uzaq durmalıdırlar. Yatmazdan əvvəl yaşıl çay içmək məsləhət deyil, yuxunu qaçırdır. Əvəzində nanəli çay için. Yaşıl çay - xərçəng hüceyrələrinin düşmənidir. Gündə 2-3 fincan yaşıl çay içən insanlarda miokard infarktı keçirmək ehtimalı 50 faiz azalır.

Gündə 6-7 fincan, yəni 120 ml. təzədəm çay içmək kifayətdir. Nanəli çay yeməkdən sonra əsl hədiyyədir.

Qeyd edək ki, nanəli çay ağız boşluğunu təravətləndirir, mədədə həzmi asanlaşdırır, əzələlərdəki ağrını sakitləşdirir, ağciyərləri açır, bağırsağı tənzimləyir, başağrılarını götürür, qan dövranını yaxşılaşdırır, yuxu gətirir, bədənin hərarətini azaldır, stressi götürür. Səhər nanəli çay içmək daha məsləhətdir. Bu zaman insanın bədəni və ruhu qüvvətlənir. Günorta içmək həzmi rahatlaşdırır. Axşam isə yorğunluğunuzu ən yaxşı masajdan da effektli çıxarır.

Payız başlayandan qış bitənə kimi çay rasionunuza – çobanyastığı, cökəçiçəyi (lipa), giləmeyvəli çaylar, itburnu daxil edin ki, immunitetiniz möhkəmlənsin, az xəstələnəsiniz.

Adil Qeybulla bizimlə söhbətdə maraqlı bir məqama da toxundu. Dedi ki, Azərbaycanda insanların orqanizmi çay içməyə öyrəşib və bir növ çaydan asılılıqları yaranıb. Əslində, çay düzgün istehsal olunmuş çaydırsa və düzgün qaydada dəmlənirsə, təbii ki, bunun insan orqanizminə heç bir zərərli təsiri yoxdur. Lakin müxtəlif mübadilə xəstəliklərində, hormonal xəstəliklərdə, bəzən qan təzyiqi yüksək olan, ürək-damar xəstəlikləri olan insanlarda çayla bağlı müəyyən problemlər ortaya çıxa bilər ki, bu da analitik təsirə malikdir və bədənin tonusunu qaldıraraq qan təzyiqini yüksəldir. Buna görə də, sadalanan xəstəliklərə düçar olan insanların həkimlə məsləhətləşməsi daha məqsədəuyğun olardı.

BƏHƏRLİSƏN-BARLISAN...

Bunlar hamısı öz yerində. Bəs, bu "ətirli-dadlı" nemətin ölkəmizdə istehsal olunan, yaxud xarıcdın idxal etdiyimiz növləri arasında hansı daha faydalı, hansı daha zərərlidir? Ölkəmizdə çeşidli adda və keyfiyyətdə satılan bu məhsulun sağlamlığa təsiri ilə bağlı hansısa monitorinq, araşdırma, yoxlama aparılırmı? Bu sualların cavabını Lent.az-a Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov açıqlayır. Müsahibimiz deyir ki, yerli mal həmişə üstün sayılmalıdır. Çünki bu çaylar insanların vərdiş etdiyi ekoloji şəraitdə yetişdirilir. Azərbaycanda istehsal olunan çayların tərkibində kimyəvi maddələrin qatqısı digər ölkələrin çaylarından fərqli olaraq azdır. Bundan əlavə, Azərbaycan çayları öz aromatik xüsusiyyətlərinə görə və torpaqdan aldığı qidalanmasına görə digər çaylardan üstündür.

Bəs, xaricdən gətirilən çayların keyfiyyətinə nə qədər güvənmək olar? Eyyub Hüseynov: Azad İstehlakçılar Birliyinə çayların keyfiyyəti ilə bağlı hər həftə 4-5 telefon zəngi olunur. Şikayətlər əsasən paket şəklində istifadə olunan çaylardandır. İstehlakçılar birmənalı olaraq bildirirlər ki, paket şəklində istifadə olunan çaylar hətta soyuq suda belə tezliklə dəm alır. İstehlakçılar şübhələnirlər ki, bu çayların tərkibinə rəngləndirici maddələr qatılır. Lakin Azad İstehlakçılar Birliyi bunun səbəbini hələ də araşdıra bilməyib".

O ki qaldı monitorinqlərə, Eyyub Hüseynov belə bir fəaliyyətin hələlik olmadığını deyir: "Biz yalnız istifadəçilərin telefon zəngləri ilə məhsulun keyfiyyətini müəyyənləşdiririk".

Amma bütün bunlar öz yerində. Çayın Azərbaycan mental şüurunda da özünə yer elədiyini yəqin ki, bilməyən, yaxud inkar edən olmaz. Xalqımızın qədim adət-ənənələrində belə çay ünsürü özünə aşkar şəkildə yer eləyib. Tibbi-qida əhəmiyyətindən başqa, çayın bu mədəni-tarıxı amil kimi də əhəmiyyəti danılmazdır.

ÇAY, ÇAY, ÇAY...

Təhqiqatçı-jurnalist Maşallah Xudubəyli Lent.az-a açıqlamasında əvvəl onu dedi ki, çay Azərbaycana 18-ci əsrdə gətirilib. Həmsöhbətimiz çayı "Azərbaycan süfrəsinin ən gözəl nemətlərindən biri" adlandırdı. Misal da çəkdi ki, Azərbaycanda hər məclisin süfrəsinə birinci növbədə çay gətirilir. M.Xudubəyli deyir ki, çay bizim ölkədə meydana gəlməsə də, bizim məişətimizə, mentalitetimizə, süfrələrimizə üzvi şəkildə bağlanıb.

Çayın milli adət-ənənələrimizdə tutduğu yeri izah etmək üçün həmsöhbətimiz maraqlı misallar çəkdi: "Azərbaycanda qız evinə elçiliyə gedərkən oğlan evinə razılıq əlaməti olaraq şirin çay verilir. Uzaq yoldan təşrif buyuran qonağa da ilk növbədə çay təqdim olunur".

İndi bu nemətin faydası haqqında Azərbaycanda neçə-neçə mahnılar da dillərdə əzbərdir...

KİMYƏ RÜSTƏMOVA

Uşaq dünyası


"Xəzər Xəbər" toplusunun
məktəblilər üçün
əlavəsi

"DÜNYA" MƏKTƏBİNİN İLK MƏZUNLARI





O gün gəldi! "Dünya" məktəbi öz tarixində ilk dəfə olaraq məzun gününü qeyd etdi! Üzlərdə sevinc, qəlblərdə qürur, ürəklərdə ayrılıqdan doğan kövrək, lakin xoş hisslərlə ilk məzunlarımızı müstəqil tələbə həyatına doğru yola saldıq. Vaxtilə əllərində gül-çiçək, böyük çantalarla məktəb partalarında əyləşən birincilər illəri uğurla






geridə qoyub,"Bilik" adlı xəzinəyə sahib olaraq, gələcəklərini qurmaq üçün həyata atıldılar.

May ayının 27 - də "Dünya" konsert salonunda məzunlarımıza həsr olunmuş musiqili gecə keçirildi. Səhnə açıldıqda gözəl geyimlərdə səhnədə görünən məzunlar valsın sədaları altında kiçik bir "tamaşa" nümayiş etdirərək, alqışlarla qarşılandılar. Sonra isə

Xəzər Universitəsinin rektoru, "Dünya" məktəbinin qurucusu, professor Hamlet İsaxanlı çıxış edərək, XI sinfi uğurla başa vuran şagirdlərə xoş arzularını çatdırdı. "Dünya" məktəbinin direktoru Nailəxanım İsayeva da məzunlara gələcək həyatlarında uğurlar arzulayaraq, məzunlarımıza ödül təqdim etmək üçün fənn müəllimlərini– Bəhlul Abdullanı, Aydın Qəmbərovu, Arif İbrahimovu, Mərufa Mədətovanı, Püstəxanım Səfərovanı və sinif rəhbəri

Çiçək Qaracayevanı səhnəyə dəvət etdi. Çiçək müəllimə da məzunlara qədəm qoyacaqları yeni həyatlarında uğurlar arzuladı. Ödüllərin təqdimatından sonra məzunların andiçmə mərasimi oldu. Andın məzmunu belə idi: "Biz, "Dünya" məktəbinin ilk məzunları doğma





vətənimiz Azərbaycanın, ailəmizin və təhsil aldığımız məktəbin şərəfini daim uca tutacağımıza and içirik!"

Sonra isə gecənin musiqili hissəsi başlandı. Peşəkarlıqla hazırlanmış musiqi, rəqs və xor nömrələri zalda əyləşən qonaqları, valideynləri, müəllimləri valeh etdi. Belə ki, qızların ifa etdikləri





"İspan rəqsi", "İncəli rəqsi", VI a sinif şagirdləri Aydan Nəsibli və Əvəz Muradovun ifasında "Naz eləmə" rəqsi, VII a sinif şagirdi Əhməd Namazlının ifasında "İgid rəqsi" və s. çıxışlar alqışlarla qarşılandı. Tədbirin sonunda xor kollektivinin ifasında "Son zəng" mahnısı bütün məzunları səhnəyə dəvət etdi və tədbir yaddaqalan bir sonluqla başa çatdı. Zalda əyləşənlərə son sözü isə elə məzunlar özləri söylədilər. Ülkər Qaracalı və Səma Namazlı məzunlar üçün çox önəmli olan bu gündə onları tək buraxmadıqları üçün hamıya təşəkkür etdilər. Tədbirin sonunda məzunlar müəllimlər və valideynlərlə xatirə şəkli çəkdirdilər.

Iki gün sonra isə doğma məktəb divarları arasında son dəfə zəng səsini dinləyən məzunlar bir daha kövrəldilər. Hər biri ayrı - ayrılıqda məktəbin rəhbərliyinə, onlara dərs deyən müəllimlərə təşəkkür etdilər. Ilk ədəbiiyat müəllimləri Bəhlul Abdulla şagirdlərinə müraciət edərək, onlara adlarının mənalarını xatırlatdı və hər birinə xoş gələcək arzuladı. Balaca birincilər də məzunlara gül-çiçək təqdim etdilər və əvəzində hədiyyələr aldılar. Və beləcə ilk məzunlarımız xoş xatirələrlə "Dünya" məktəbinin adını ucaltmaq üçün həyata atıldılar.

Bütün kollektiv adından məzunlara uğurlar arzulayırıq. Arzu edirik ki, sədaları ən yüksək zirvələrdən gəlsin. Azərbaycanımızın, onların zirvələrə yüksəlməsində böyük rolu olan təhsil ocaqlarının şərəfini uca tutsunlar!

Mədinə RZAYEVA

"MƏN DƏ SƏNƏ ELƏ BUNLARI ARZULAYIRAM, AYDAN!"



Aydan dərs dediyim IV a sinfində oxuyur. "Dünya" məktəbində 1-ci sinifdən təhsil alır. Səmimi, ağıllı şagirddir. Dərslərində fəaldır. Onunla söhbət etdim...

– Necəsən, Aydan?

– Yaxşıyam, müəllimə.

– Saçlarını həmişə səliqə ilə hörən kimdir?

– Nənəm. O, hər səhər saçlarımı hörür.

– Səncə, nəvələrin qayğısına ən çox qalan kimdir, nənələr, yoxsa analar?

– Nənələr. Çünki nənələr nəvələrini çox sevirlər. Həm də analar işə gedir axı... Vaxtları az olur.

– Səliqəli qızsan?

– Bəli. Otağımı özüm səliqəyə salıram, məktəbdə partamı həmişə yaş salfetlə silirəm, hər dəfə istifadə etdikdən sonra qələmimi qabına qoyuram...

– Bəs səbrlisən?

– Bəli. Hər dəfə məndən əvvəl komputerdən xalam qızı istifadə edir. Mən də səbrlə onu gözləyirəm.

– Böyüyəndə hansı sənəti seçmək istərdin?

– Modelyer. Çünki mən yaxşı rəsm çəkməyi bacarıram. Geyim şəkillərini şəkməyi çox sevirəm.

– Dost haqqında düşünəndə, ən birinci yadına kim düşür?

– Sədaqət. Çünki o əsl dostdur. Sınamışam.

– Sinif yoldaşlarına nə arzulardın, Aydan?

– Hamısına ali məktəbə qəbul olmalarını arzulardım. Ürəklərində olan bütün arzularına çatsınlar.

– Mən də sənə elə bunları arzulayıram, Aydan!

Mədinə RZAYEVA

"MƏKTƏBƏ GEDƏCƏYƏM..."



Iyun ayının 8 - də "Dünya" məktəbliləri daha bir buraxılış gününün şahidi oldular. Bu dəfəki məzunlar məktəbin ən kiçik üzvləri – hazırlıq sinfinin uşaqları idilər. Onlar bağçaya "əlvida" deyib, I sinfə qədəm qoymaq üçün yay tətilinə yollandılar.

Amma tətildən əvvəl gözəl bir yekun konserti ilə yaxınlarını bir araya topladılar. Kəpənəkləri xatırladan balacalar ilk öncə "Hazırlıq sinfini uğurla başa vurub I sinfə qəbul olunduğu üçün" diplomlarla təltif olundular. Diplomları əllərində tutaraq, "Məktəbə gedəcəyəm" mahnısını ifa edən balacalar öz sevinclərini zaldakılarla paylaşdılar. Qeyd edim ki, balacaları II sinif şagirdləri rəqslə, IV b sinif şagirdləri "Yatmış gözəl" tamaşası və



fortepiano musiqiləri ilə təbrik etdilər. Hazırlıq sinfinin orta yaş qrupu da "böyük" dostlarından geri qalmadılar. "Timsahlar" rəqsini elə timsah geyimində ifa edən kiçik rəqqaslar hamını güldürə bildilər. "Zəhmətsiz çörək yemək olmaz" tamaşası, "Bayram rəqsi", "Qonaqlıq mahnısı", ingilis dilində mahni - tamaşanı da elə hazırlıq sinfinin şagirdləri özləri ifa etdilər. Balacalar sonda "Əlvida, bağça" mahnısı ilə zaldakılarla sentyabr ayına kimi vidalaşdılar. Valideynləri və müəllimləri ilə xatirə şəkilləri çəkdirən balacalar yay tətilinə xoş ovqatla yollandılar.


Mən də balaca oxucularımızdan yeni tədris ilində görüşmək ümidi ilə ayrılıram. "Dünya" məktəbinin kollektivi adından bütün şagirdlərimizə xoş yay istirahəti arzulayıram.

Mədinə RZAYEVA

KİTABXANAMIZIN YENİ KİTABLARI



Bəzi ümumi qayğılar: Bp-nin Azərbaycan-Gürcüstan-Türkiyə boru kəmərləri sistemi haqqında xəyalları. – Bakı: Adiloğlu, 2003. – 271 s.



Güləliyev M. Böyük şeytan və ya sonun başlanğıcı. Bakı: Adiloğlu, 2007. – 462 s. – ISBN 978-9952-25-072-5

Sevim Ş. Mali tablolar analizi. – Ankara: Kütahya, 2005. – 334 s. – ISBN 975-97414-1-5




Sevim Ş. Muhasebe bilgi sistemi. – Ankara: Kütahya, 2003. – 218 s. – ISBN 975-92268-4-7






Sevim Ş. Şirketler muhasebesi. – Ankara: Kütahya, 2008. – 360 s. – ISBN 978-9944-5553-8-8



Zaman M. Başsız meyit. – Bakı: Maarif, 2007. – 72 s.

Tsokos K.A. Physics for the IB Diploma. – Cambridge: University Press, 2008. – 836 p. – ISBN 978-0-521-70820-3.



Некоторые общие заботы: грезы BP о системе трубопроводов Азербайджан-Грузия-Турция. – Баку: Адилоглы, 2003. – 268 с.



Hazırlayanı: Lyudmila Sotova

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
«Xəzər Xəbər» toplusu yenə sizin görüşünüzə gəlib.
«Xəzər Xəbər»də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar,
qəribə sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
«Xəzər Xəbər» gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
«Xəzər Xəbər»i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
«Xəzər Xəbər»i siz də oxuyun!
«Xəzər Xəbər»ə siz də yazın!
«Xəzər Xəbər»i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
«Xəzər Xəbər» ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org